# Xalq qəzeti

Xalqın qəzeti!

№ 160 (30854) 3 avqust 2025-ci il, bazar

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti


## Azərbaycandan Suriyaya qaz ixracının strateji hədəfləri



**Tarixi hadisə reallaşdı. Dünən Türkiyənin Kilis şəhərində Azərbaycan qazının Türkiyə ərazisindən Suriyaya ixracına başlanıldı. İlkin mərhələdə ildə ölkəyə 1,2 milyard kubmetr təbii qazın verilməsi planlaşdırılır. Bununla Azərbaycan qazının ixrac olunduğu ölkələrin sayı 14-ə çatdı. Əlbəttə, söhbət təkcə ölkəmizə məxsus enerjinin idxalçılarının sayının artmasından getmir.**

Tam əminliklə deyə bilərik ki, Türkiyə-Suriya Təbii Qaz Boru Xəttinin açılışı ilə Azərbaycandan Suriyaya qaz nəqlinin başlanması ölkəmizin regional və qlobal enerji təhlükəsizliyinin təmin olunmasına töhfə baxımından da vacibdir. Eyni zamanda, ölkəmiz özünün etibarlı və strateji enerji təchizatçısı olduğunu bir daha nümayiş etdirir.

Digər tərəfdən, Azərbaycanın Suriyaya qaz ixracı ölkəmizin Yaxın Şərq siyasətində iştirakçılığının real forma və məzmun daşıdığının sübutudur. Özlüyündə Suriyanın bu siyasətdə mühüm halqanı təşkil etdiyini söyləyə bilərik. Çünki ölkənin coğrafi mövqeyi onu mühüm strateji məntəqə halına gətirir. Rəsmi Bakı bu məqamı nəzərə alır.

*(ardı 3-cü səhifədə)*

## Azərbaycan qazının Suriyaya nəql olunması ilə bağlı birgə açıqlama

**Azərbaycan, Qətər, Suriya və Türkiyə Azərbaycan qazının Türkiyə ərazisindən Suriyaya nəqlinə başlanılması ilə bağlı birgə açıqlama yayıb.**

Türkiyənin Enerji və Təbii Sərvətlər Nazirliyinin yaydığı birgə açıqlamada bu hadisə sözügedən 4 ölkə arasında əlaqələrin dərinləşdirilməsində mühüm addım kimi dəyərləndirilib.

Qeyd olunub ki, rekord müddətdə həyata keçirilən bu layihə Suriyanın münaqişədən sonra yenidən qurulması və normallaşması prosesi üçün mühüm əhəmiyyət kəsb edir:

"Türkiyənin Kilis əyaləti ilə Suriyanın Hələb şəhəri arasında uzanan və gündəlik 6 milyon kubmetr qaz ötürmə qabiliyyətinə malik bu yenilənmiş boru kəməri avqustun 22-də rəsmi olaraq fəaliyyətə başlayıb. Qətər Dövləti Qətər İnkişaf Fondu vasitəsilə bu təşəbbüs çərçivəsində elektrik enerjisi istehsalına dəstək verməklə Suriya Ərəb Respublikasının bərpası və sabitləşməsi prosesinə sadiqliyini bir daha təsdiqləyir.




Hələb Elektrik Stansiyasına təbii qaz axınının başlanması ilə Suriyada elektrik təchizatı əhəmiyyətli dərəcədə artacaq. Bu təşəbbüs Suriya iqtisadiyyatının canlanmasına və insanların həyat şəraitinin yaxşılaşmasına bilavasitə töhfə verən mühüm humanitar addımdır.

Bundan başqa, ölkələrimiz regionda sülhün, sabitliyin və rifahın möhkəmləndirilməsinə sadiq olduqlarını bir daha təsdiqləyirlər".

## Qafqazdan Yaxın Şərqə uzanan enerji təhlükəsizliyi marşrutu



**Azərbaycan özünün zəngin enerji resursları və uzaqgörən siyasəti ilə dünya enerji xəritəsində mühüm rol oynayır. Son illərdə enerji diplomatiyası sahəsində mühüm uğurlara imza atan ölkəmiz bu il avqustun 2-də daha bir önəmli layihəyə start verib, Azərbaycan qazının Türkiyə ərazisindən Suriyaya ixracına başlanıb. Cari ilin aprelin 11-də Antalyada və iyulun 12-də Bakıda Azərbaycan Prezidenti İlham Əliyevlə Suriyanın keçid dövrü Prezidenti Əhməd Əl Şaraa arasında keçirilən görüşlərdə bu istiqamətdə əldə olunan razılaşmalar regionda mühüm enerji əməkdaşlığının bünövrəsini qoyub.**

*(ardı 3-cü səhifədə)*

## Diplomatiyasayağı müdaxilə



səhifə ⇨ 5

## Minsk qrupu ilə bağlı strukturlar bağlanmalıdır!



**Azərbaycanın ATƏT yanında daimi nümayəndəliyinin "Helsinki+50" konfransı çərçivəsində verdiyi bəyanatında bildirilir ki, ATƏT prinsiplərinin onilliklər ərzində selektiv şəkildə tətbiqi təşkilatın etibarlılığına zərbə vurub və regionda təhlükəsizliklə əməkdaşlığına mənfi təsir göstərib.**

Azərbaycan Ermənistanın hərbi təcavüzü və ərazilərinin uzun müddət işğal altında saxlanılması fonunda ATƏT-in təsis sənədlərində əks olunmuş prinsiplərin kobud şəkildə pozulmasının ağır nəticələri ilə üzləşib. Münaqişənin ilk mərhələsindən başlayaraq Azərbaycanın suverenliyi və ərazi bütövlüyü pozulub, bir milyondan çox insan qaçqın və məcburi köçkün vəziyyətinə düşüb. Bu müddət ərzində ATƏT və onun mandatına daxil olan qurumlar münaqişənin həllinə yönəlik real nəticələr ortaya qoya bilməyiblər.

*(ardı 4-cü səhifədə)*

## Xəzərin "Ümid-Babək" yatağında kəşfiyyata başlanacaq



səhifə ⇨ 7

## Qayıdış yollarını işıqlandıran ekran




səhifə ⇨ 6

## Mötəbər tarixi həqiqətlər məbədi




səhifə ⇨ 9




## "Ermənistan yorulub, Rusiya zəifləyib, Azərbaycan isə dünyaya açılır"

səhifə ⇨ 5

# Türkiyədə Azərbaycan qazının Suriyaya nəqlolunma mərasimi















**Türkiyənin Kilis şəhərində Azərbaycan qazının Türkiyə ərazisindən Suriyaya nəqlinə başlanılması ilə bağlı mərasim keçirilib.**

Mərasimdə Azərbaycan, Türkiyə, Suriya və Qətərin hökumət nümayəndələri, rəsmi şəxslər iştirak etdikləri məclisdə çıxış edən Azərbaycanın iqtisadiyyat naziri, SOCAR-ın Müşahidə Şurasının sədri Mikayıl Cabbarov bildirib ki, Azərbaycan qazının Türkiyə ərazisindən Suriyaya ixracına cari il aprelin 11-də Antalyada və iyulun 12-də Bakıda Azərbaycan Prezidenti İlham Əliyevlə Suriyanın keçid dövrü Prezidenti Əhməd Əl Şaraa arasında keçirilən görüşlərdə əldə edilmiş razılaşmalar əsasında, qısa müddət ərzində start verilib. Nazir qeyd edib ki, bu layihə Suriyanın enerji təhlükəsizliyinin təmin edilməsinə mühüm töhfə verəcək. Mikayıl Cabbarovun sözlərinə görə, Azərbaycan və Türkiyə kimi iki qardaş ölkə arasında bütün sahələri, o cümlədən enerji sektorunu əhatə edən strateji tərəfdaşlıq məhz bu tarixi əhəmiyyətə malik layihənin də sürətli şəkildə reallaşdırılmasına şərait yaradıb. O əlavə edib ki, hər iki ölkə Suriyanın yenidən qurulması və inkişafına dəstək göstərmək istiqamətində birgə fəaliyyət göstərir və bu sahədə əhəmiyyətli addımlar atılır.

M.Cabbarovun sözlərinə görə, Azərbaycan təbii qazının Türkiyə ərazisi ilə Suriyaya nəql olunması ölkəmizin enerji ixracı tarixində mühüm mərhələdir və Cənubi Qafqaz ilə Yaxın Şərq arasında yeni enerji körpüsünün əsasını qoyur. Azərbaycan qazının ixrac olunduğu ölkələrin sayının 14-ə çatdığını söyləyən nazir bildirib ki, SOCAR-ın planları daha böyükdür və hazırda SOCAR xaricdə qaz hasilatı layihələrində paylar əldə edərək şirkətə məxsus qazı yeni istehlakçı ölkələrə çatdırmağı planlaşdırır.

SOCAR-ın Müşahidə Şurasının sədri Azərbaycanın həyata keçirdiyi strateji enerji layihələrindən bəhs edərək, bu təşəbbüslərin ölkəmizin regional və qlobal enerji təhlükəsizliyinin təmin olunmasında əvəzsiz rola malik olduğunu bildirib. Nazir qeyd edib ki, Türkiyə-Suriya Təbii Qaz Boru Xəttinin açılışı ilə Azərbaycandan Suriyaya qaz nəqlinin başlanması ölkəmizin etibarlı və strateji enerji təchizatçısı olduğunu bir daha nümayiş etdirir. Bu layihə ölkəmizin qaz ixracı coğrafiyasının yeni istiqamətlər üzrə genişləndirilməsinə mühüm töhfələr verəcək.

Suriyanın energetika naziri Məhəmməd Əl Bəşir uzun illər davam edən müharibədən əziyyət çəkən Suriyada rifahın yaxşılaşdırılması və ölkənin bərpası istiqamətində göstərdiyi dəstəyə görə Azərbaycan və Türkiyə dövlətlərinə təşəkkürünü bildirib.

SOCAR ilə birlikdə Azərbaycan qazının Türkiyə-Suriya sərhədində təhvil verilməsini nəzərdə tutan SVOP (mübadilə) razılaşmasının imzalandığını bildirən Türkiyənin energetika və təbii sərvətlər naziri Alparslan Bayraktar kədərli və sevincli günlərdə daim Türkiyənin yanında olan Azərbaycanın bu layihədə də dəstəyini əsirgəmədiyini qeyd edib. Azərbaycanın təbii qazının Kilis vasitəsilə Suriyaya ixrac olunacağını söyləyən nazir "Yavuzlu Ölçmə" Stansiyasından gündəlik 6 milyon kubmetr təbii qazın nəql olunacağını bildirib.

A.Bayraktar Suriyaya qaz ixracı nəticəsində oradakı elektrik stansiyalarının da yaxın zamanda fəaliyyətə başlayacağını deyib. İlkin mərhələdə Suriyaya ildə 2 milyard kubmetrə qədər təbii qaz ixracı mümkün olacaq. Bu təbii qaz vasitəsilə təqribən 1200 meqavatlıq quraşdırılmış güc aktivləşəcək. Bu layihə Suriyada həyatın normallaşmasına çox ciddi töhfə verəcək, insanların həyat səviyyəsini yüksəldəcək və ölkəyə geri qayıdış prosesini sürətləndirəcək.

Azərbaycan nümayəndə heyətinin səfəri çərçivəsində, həmçinin Türkiyə və Suriya nümayəndə heyətləri ilə ikitərəfli görüşlər təşkil olunub. Görüşlərdə enerji sektorunda əməkdaşlığın genişləndirilməsi imkanları nəzərdən keçirilib, qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.







## Enerji diplomatiyası nümunəsi



**Türk dövlətləri arasında enerji diplomatiyasının bir nümunəsi də həyata keçir. Bunu Azərbaycan qazının Suriyaya ixracı barədə Türkiyənin hakim Ədalət və İnkişaf Partiyasının (AKP) sədrinin müavini Kürşad Zorlu "X" hesabında yazıb:**

"Azərbaycan qazı artıq Türkiyə üzərindən Hələbə gedir. Türkiyənin Enerji və Təbii Sərvətlər Nazirliyinə aid BOTAŞ şirkəti tərəfindən Kahramanmaraşın Türkoğlu rayonundan başlayıb Suriyaya uzanan 36 düymlük, 93 kilometrlik boru kəməri tamamlanıb. Türkiyə Azərbaycandan təbii qazı birbaşa Kilis vasitəsilə qonşu Suriyaya nəql edəcək".

O bildirib ki, Suriyada həyatın normallaşması, elektrik enerjisinin istehsalının yenidən başlanması və sabitliyin dəstəklənməsi təhlükəsiz və könüllü qayıdış prosesini sürətləndirir: "Bu strateji xətt türk dünyasının regional nizam qurmaq potensialını inkişaf etdirir, inkişaf və sabitliyə töhfə verir. Prezidentimizin liderliyində ortaya qoyulan bu baxış ikitərəfli və çoxtərəfli əməkdaşlıqla etimad, hüzur və rifah iqliminə zəmin hazırlayıq. "Dildə, fikirdə, əməldə birlik" şüarı ilə hər sahədə əməkdaşlığımızı inkişaf etdirəcəyik".

## Suriyada sosial həyatın bərpasına dəstək

**Azərbaycan qazının Türkiyə vasitəsilə Suriyaya nəqli bu ölkənin dağılmış infrastrukturunun, sosial həyatının bərpası baxımından son dərəcə əhəmiyyətlidir.**



Bunu Türkiyənin hakim Ədalət və İnkişaf Partiyasının (AKP) sözçüsü Ömer Çelik keçirdiyi mətbuat konfransında deyib.

Türkiyənin enerji diplomatiyasının mərkəzinə çevrildiyini vurğulayan Ö.Çelik həmçinin qeyd edib ki, bu addım regionda sabitliyin təmin olunmasına da töhfə verəcək.

*XQ*

## 3 ölkənin birgə layihəsi

**Azərbaycan qazının Türkiyə üzərindən Suriyaya ixracı qardaş ölkə ilə enerji əlaqələrini daha da gücləndirəcək.**



Bu fikirləri Türkiyənin hakim Ədalət və İnkişaf Partiyasının (AK Parti) Elbeyli rayon təşkilatının sədri Nəcməddin Dönməz Türkiyə–Suriya təbii qaz boru kəmərinin açılış mərasimindən əvvəl jurnalistlərə açıqlamasında səsləndirib.

O bildirib ki, Azərbaycan qazının Türkiyə ərazisindən Suriyaya ixracı iki ölkə arasında enerji sahəsindəki əməkdaşlığı möhkəmləndirəcək: "Azərbaycan qazının məmləkətimiz üzərindən Suriyaya çatdırılması qardaş ölkələrlə enerji bağlarımızı daha da möhkəmləndirəcək. Bu tarixi hadisənin iştirakçısı olmaqdan qürur duyuram".

N.Dönməz qeyd edib ki, bu mühüm layihə hər üç ölkə üçün strateji əhəmiyyət daşıyır: "İnanıram ki, bu addım həm Türkiyə, həm Azərbaycan, həm də Suriya üçün faydalı olacaq. Ümid edirəm ki, Suriyanın bərpası və enerji təhlükəsizliyinin təmin olunması istiqamətində Azərbaycan bundan sonra da fəal təşəbbüslərlə çıxış edəcək".

*XQ*

# Azərbaycandan Suriyaya qaz ixracının strateji hədəfləri

(əvvəli 1-ci səhifədə)




Ümumən, Azərbaycan münaqişədən sonrakı dövrdə Suriyanın inkişafına, ölkədəki bərpa-quruculuq prosesinə töhfə verməyə hazırlığını lap əvvəldən bəyan edib. Bu məram ilk dəfə 2024-cü ilin dekabrında Prezident İlham Əliyevlə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan arasındakı telefon danışığında ifadə olunub. Dövlətimizin başçısı söhbət zamanı Türkiyənin yaxın dəstəyi ilə Suriyada sabitlik dövrünün başlayacağına ümidvar olduğunu bildirərək, Azərbaycanın qardaş ölkə ilə birlikdə Suriya xalqının üzləşdiyi humanitar problemlərin aradan qaldırılmasına dəstək verməyə hazır olduğunu vurğulamışdı. Cənab Ərdoğan isə bütün sahələrdə olduğu kimi, Suriya xalqına humanitar yardım və dəstək məsələsində də Azərbaycan və Türkiyənin birgə fəaliyyət göstərəcəyindən məmnunluğunu dilə gətirmişdi.

Prezident İlham Əliyevin hər fikri və sözünün reallıqla dərin fiksasiya mahiyyəti var. Deməli, telefon danışığında ifadəsini tapan məramın reallaşdırılması istiqamətində tədbirlərin görüləcəyini proqnozlaşdırmaq olardı. Ehtimallar özünü doğrultdu. 2025-ci il mayın 4-də ölkəmizin baş nazirinin müavini Samir Şərifovun rəhbərliyi ilə nümayəndə heyətimiz Suriya səfərdə oldu. Dövlətimizin başçısının tapşırığına uyğun olaraq gerçəkləşmiş səfər Suriyanın bərpasına, inkişafına dəstək və bu ölkənin hazırkı keçid hökuməti ilə müxtəlif sahələrdə, o cümlədən iqtisadiyyat, enerji, mədəniyyət və təhsil sahələrində əməkdaşlıq imkanlarını araşdırmaq məqsədi daşıdı.

Bundan əvvəl, konkret desək, aprel ayında Antalya Diplomatik Forumunda Prezident İlham Əliyevlə Suriya Ərəb Respublikasının keçid dövrü Prezidenti Əhməd Əl Şaraa arasında görüş keçirilmişdi. Samir Şərifovun rəhbərlik etdiyi Azərbaycan nümayəndə heyətini qəbul edən Əl Şaraa həmin görüşü məmnunluqla xatırlayaraq, ölkəsinə səfər missiyanın qısa müddətdə təşkilinə görə dövlətimizin başçısına minnətdarlığını bildirmişdi. Görüş zamanı S.Şərifov Suriya liderinə Prezident İlham Əliyevin Azərbaycana dəvət məktubunu təqdim etmişdi.

O da məlumdur ki, Azərbaycan ilk rəsmi nümayəndə heyətini Dəməşqə hələ ötən ilin dekabrında ezam etmiş və 12 ildən sonra bu ilin fevralında ölkəmizin Suriyadakı səfirliyinin fəaliyyəti bərpa olunmuşdu. Prezident İlham Əliyevin Əhməd Əl Şaraanı ölkəmizə dəvətinə gəlincə, məlumdur ki, ikincinin Bakıya səfəri iyulun 12-də gerçəkləşdi. Səfər çərçivəsində Azərbaycan Dövlət Neft Şirkəti ilə Suriya hökuməti arasında enerji sahəsində əməkdaşlığa dair Anlaşma Memorandumu imzalandı. Sənəd Türkiyə üzərindən Suriyaya təbii qazın tədarükü, enerji və neft axtarışı sahələrində əməkdaşlıq və əlaqələndirməni nəzərdə tutdu. Deməli, Suriyaya qaz ixracının başlanmasını həm də sözügedən memorandumun müddəalarının reallaşdırılması aspektindən qiymətləndirə bilərik. Onu da bildirək ki, memorandumda tərəflər, həmçinin enerji infrastrukturunun inkişafı və yenidən qurulması istiqamətində birgə layihələrin həyata keçirilməsi barədə razılığa gəldilər.

Ancaq Əhməd Əl Şaraanın ölkəmizə səfəri çərçivəsində yalnız enerji sahəsində anlaşmanın əldə olunmasına baxmayaraq, Suriyanın yenidən qurulması, təhsil və mədəniyyət kimi digər sahələrdə gələcək əməkdaşlığa dair də fikir mübadiləsi aparılmış, suriyalı tələbələrin təqaüdlə Azərbaycanda təhsil almaları məsələsində razılıq əldə olunmuşdu. Heç şübhəsiz, bu razılıq da özünü praktik fəaliyyətdə göstərəcək.

Bir məqamı da vurğulayaq ki, Azərbaycanın Suriyaya yanaşması sistemli xarakter daşıyır. Bunun isə bir neçə səbəbi var. Ən başlıca səbəb odur ki, 2023-cü ildən etibarən Azərbaycanın xarici siyasətində yeni prioritetlər formalaşıb və həmin prioritetlərə Yaxın Şərq, Şimali Afrika və Körfəz ölkələri ilə münasibətlərin genişləndirilməsi daxildir. Əvvəldə Suriyanın coğrafiya əhəmiyyətini əbəs yerə vurğulamadıq. Bir daha məsələyə qayıdaraq deyək ki, bu ölkə geniş coğrafiyada açar nöqtələrdən biridir.

Azərbaycan üçün Suriya ilə münasibətlərin sağlam qurulması həm də ona görə vacibdir ki, yaşadığımız yaxın tarix var və həmin tarixin Bəşər Əsəd hakimiyyəti zamanında Suriyada ölkəmizə qarşı yönəlmiş bəzi terrorçu elementlər fəaliyyət göstərib. Bundan başqa, ölkədə erməni lobbisinin təsiri olub və bu, ikitərəfli münasibətlərə mənfi təsir göstərib. Deməli, risklərin gələcəkdə təkrarlanmaması şərtdir. Ona görə də Suriya ilə münasibətlər açıq, praqmatik və davamlı olmalıdır.

Önəmli məsələlərdən biri də Suriyanın Azərbaycanın strateji müttəfiqi olan Türkiyə ilə uzun quru sərhədə malikliyidir. Deməli, bu baxımdan da ölkənin yerləşdiyi regionda sabitliyin bərpası və iqtisadi-ticari əlaqələrin inkişafı mühüm əhəmiyyət daşıyır.

Bütün bunlarla yanaşı, Suriyanı Azərbaycan üçün vacib edən bir cəhət də var. Ölkə xalqımızın tarixi-mədəni arealına daxildir. Məsələn, Hələb mədəniyyətimizin ayrılmaz hissəsi kimi qəbul edilən şəhərdir. Eyni zamanda, hələ orta əsrlərdə azərbaycanmənşəli sənət dühalarının Suriya ilə əlaqələrini yaddan çıxarmamalıyıq. Deməli, bugünkü Azərbaycan-Suriya əməkdaşlığı həm də ölkəmizin öz zəngin irsinə sahiblənmək prioritetini də daşımaqdadır.

Sonda onu da deyək ki, Prezident İlham Əliyevin şəxsində dövlətimizin çoxşaxəli siyasət kursu üçün strateji hədəf amili son dərəcə vacibdir. Bu barədə söz açarkən Azərbaycan qazına tələbatın artdığını vurğulamalıyıq. Tələbat isə rəqabət doğurur. Belə bir şəraitdə diversifikasiya imkanlarını genişləndirməyimiz önəmlidir. Yəni, hədəfimiz təkcə Avropa bazarı olmamalıdır. Qarşımızda yeni coğrafiya - Yaxın Şərq var. Bu mənada Suriya tranzit ölkə rolunu oynaya bilər.

Nəzərə alaq ki, Suriyanı İordaniya ilə birləşdirən qaz kəməri dağıdılsa da, onun bərpası mümkündür. Yəni, Azərbaycan qazının Suriyadan keçməklə Misirə qədər çatdırılma perspektivi var. Onu da deyək ki, Suriyaya qaz idxalı ümumən enerji idxalı ilə bağlı da imkanlar açır. Azərbaycan isə həm də elektrik enerjisi istehsalçısıdır. Yəni, bu gün qaz, sabah elektrik enerjisi. Deməli, yeni imkanlar dedikdə, ölkəmizin Yaxın Şərq regionuna da elektrik enerjisi ixrac edə bilməsindən söz açmaq mümkündür.

***Ə.CAHANGİROĞLU***
***XQ***

---

# Qafqazdan Yaxın Şərqə uzanan enerji təhlükəsizliyi marşrutu

(əvvəli 1-ci səhifədə)

Bu layihə yalnız iqtisadi yox, eyni zamanda, siyasi və humanitar əhəmiyyət daşıyır. Enerji sahəsində qlobal proseslərin getdikcə mürəkkəbləşdiyi, enerji resurslarına çıxışın bir sıra ölkələr üçün çətinləşdiyi bir zamanda Azərbaycanın bu təşəbbüsü Suriyanın enerji təhlükəsizliyinə mühüm töhfə verməklə yanaşı, onun bərpa və inkişaf proseslərini də dəstəkləyir.

Müharibədən əziyyət çəkmiş Suriyanın yenidən qurulması üçün enerji təchizatı mühüm amildir. Elektrik enerjisinin bərpası, sənaye və kənd təsərrüfatı istehsalının canlandırılması, xəstəxana və digər sosial obyektlərin fasiləsiz fəaliyyətinin gerçəkləşdirilməsi məhz davamlı və etibarlı qaz təchizatından asılıdır. Bu kontekstdə Azərbaycanın qaz ixracı Suriyaya təkcə enerji deyil, həm də sülh, sabitlik və rifah gətirəcək bir mesaj kimi qiymətləndirilə bilər. Bu təşəbbüs, eyni zamanda, Azərbaycanın regionda barış və inkişaf siyasətinin davamı kimi çıxış edir.

Layihənin uğurla icrasında əsas rol oynayan tərəflərdən biri, şübhəsiz ki, Türkiyədir. Azərbaycan və Türkiyə arasında mövcud olan strateji tərəfdaşlıq münasibətləri bu mühüm enerji layihəsinin sürətlə reallaşmasına münbit zəmin yaradıb. Türkiyə yalnız tranzit ölkə funksiyasını yerinə yetirməklə kifayətlənmir, eyni zamanda, Suriyanın bərpası istiqamətində Azərbaycanın göstərdiyi təşəbbüsləri dəstəkləyir. Bu baxımdan iki qardaş ölkə arasında qarşılıqlı etimad və koordinasiya regional sabitliyin və iqtisadi inkişafın təmin olunmasında mühüm amildir.

Qeyd edilməlidir ki, Azərbaycanın bu təşəbbüsü beynəlxalq səviyyədə də müsbət qarşılanır. Qaz ixracı layihəsi həm regional əməkdaşlıq modelinin nümunəsi kimi dəyərləndirilir, həm də münaqişə və qeyri-sabitlik şəraitində olan ölkələrin bərpasına töhfə verməyin səmərəli yollarından biri kimi diqqətə çatdırılır. Azərbaycanın həyata keçirdiyi bu siyasət özündə humanitar məram və enerji diplomatiyasını uğurla birləşdirir.

Azərbaycan Prezidenti İlham Əliyevin qlobal çağırışlar fonunda həyata keçirdiyi belə dəyərli təşəbbüslər ölkəmizin məsuliyyətli və praqmatik bir enerji aktoru olduğunu bir daha təsdiqləyir. Dövlətimizin başçısının Antalyada və Bakıda keçirdiyi yüksək səviyyəli görüşlər, bu strateji layihənin siyasi əsaslarını möhkəmləndirməklə yanaşı, onun davamlı və etibarlı icrasına zəmin yaradıb.



Layihənin texniki icrası da yüksək səviyyədə təşkil olunub. TANAP və digər mövcud infrastruktur vasitəsilə Azərbaycan qazı Türkiyə ərazisindən Suriyanın şimalına çatdırılır. Türkiyə bu prosesdə həm logistik, həm də texniki dəstək göstərərək regional enerji təhlükəsizliyinə mühüm töhfə verir. Azərbaycan isə müasir texnologiyalardan və peşəkar resurslardan istifadə etməklə qazın fasiləsiz və dayanıqlı şəkildə ötürülməsini gerçəkləşdirir.

Suriyanın enerji sisteminin bərpası istiqamətində həyata keçirilən bu layihə gələcəkdə daha genişmiqyaslı əməkdaşlıq imkanları da vəd edir. Azərbaycanın Suriyada enerji infrastrukturu, elektrik stansiyaları və digər texniki obyektlərin bərpasında iştirak etməsi də istisna deyil. Bu isə təkcə enerji təminatını deyil, həm də sosial və iqtisadi canlanmanı reallaşdıracaq bir addımdır.

Azərbaycan və Türkiyənin Suriyanın bərpası prosesində ortaq mövqedən çıxış etməsi regional həmrəylik və sülh təşəbbüslərinin real nəticələr verdiyini göstərir. Bu əməkdaşlıq modeli, eyni zamanda, münaqişədən çıxmış və bərpa mərhələsində olan ölkələrin inkişafına dəstək göstərmək baxımından nümunə ola bilər,

Onu da qeyd edək ki, Azərbaycan qazının Türkiyə vasitəsilə Suriyaya ixracı bir neçə strateji məqsədi həyata keçirir: regionda enerji təhlükəsizliyini möhkəmləndirir, Suriyanın bərpasına dəstək verir, Azərbaycan və Türkiyə arasındakı strateji əməkdaşlığı dərinləşdirir və bölgədə sabitlik, əməkdaşlıq və tərəqqiyə yönələn yeni bir səhifə açır. Bu, Azərbaycanın yalnız enerji istehsalçısı və ixracatçısı deyil, həm də sülh, inkişaf və humanitar dəyərlərin daşıyıcısı olduğunu bir daha sübut edir.

Burada bir məqamı da xüsusi vurğulamaq istərdik. Türkiyənin Kilis şəhərində Azərbaycan qazının Türkiyə ərazisindən Suriyaya nəqlinə başlanılması ilə bağlı keçirilən mərasimdə iştirak edən Azərbaycanın iqtisadiyyat naziri, Dövlət Neft Şirkətinin Müşahidə Şurasının sədri Mikayıl Cabbarovun sözlərinə görə, ölkəmizin "mavi yanacağ"ının Türkiyə ərazisi ilə Suriyaya nəql olunması respublikamızın enerji ixracı tarixində mühüm mərhələdir. Eyni zamanda, bu qaz ixracı ilə Cənubi Qafqaz ilə Yaxın Şərq arasında yeni enerji körpüsünün əsası qoyulur. Azərbaycan qazının ixrac olunduğu ölkələrin sayının 14-ə çatdığını söyləyən nazir bildirib ki, Azərbaycan Dövlət Neft Şirkətinin planları daha böyükdür və hazırda adı çəkilən şirkət xaricdə qaz hasilatı layihələrində paylar əldə edərək sözügedən quruma məxsus "mavi yanacağ"ı yeni istehlakçı ölkələrə çatdırmağı planlaşdırır.

Dövlət Neft Şirkətinin Müşahidə Şurasının sədri Azərbaycanın həyata keçirdiyi strateji enerji layihələrindən bəhs edərək, bu təşəbbüslərin ölkəmizin regional və qlobal enerji təhlükəsizliyinin təmin olunmasında əvəzsiz rola malik olduğunu da bildirib. Nazir qeyd edib ki, Türkiyə – Suriya Təbii Qaz Boru Xəttinin açılışı ilə Azərbaycandan Suriyaya qaz nəqlinin başlanması ölkəmizin etibarlı və strateji enerji təchizatçısı olduğunu bir daha nümayiş etdirir. Bu layihə, eyni zamanda, respublikamızın qaz ixracı coğrafiyasının yeni istiqamətlər üzrə genişləndirilməsinə mühüm töhfələr verəcəyini şərtləndirir.

***V.BİNYƏTOĞLU***
***XQ***

## Ekspert rəyi

**Eyyub KƏRİMLİ,**
**İqtisadçı-ekspert**



Azərbaycan – Suriya qaz ixracının iqtisadi və regional əhəmiyyəti böyükdür. Bu bir sıra mühüm göstəricilərdə də öz ifadəsini tapır. Belə ki, 2025-ci ilin yanvar-iyul aylarında Azərbaycanın ümumi təbii qaz ixracı əvvəlki ilin eyni dövrü ilə müqayisədə 4,7 faiz azalaraq 12,1 milyard kubmetr təşkil edib. Bu ixracın 50 faiz (6,1 milyard kubmetr Avropaya, 41 faiz (4,9 kubmetr Türkiyəyə, 9 faiz (1,1 milyard kubmetr) Gürcüstana yönəlib. 2024-cü ildə isə Avropaya 6,4 milyard kubmetr, Türkiyəyə 5 milyard kubmetr və Gürcüstana 1,3 milyard kubmetr qaz ixrac edilib. Bu rəqəmlər göstərir ki, Azərbaycan Avropa və Türkiyədən savayı yeni bazarlara – Yaxın Şərqə doğru ixrac coğrafiyasını genişləndirməsi strateji iqtisadi addımdır.

Qeyd edim ki, bu il avqustun 1-dən etibarən Azərbaycan qazı Türkiyədə Kilis – Hələb kəməri vasitəsilə Suriyaya çatdırılacaq. İlk mərhələdə illik 1,2 milyard kubmetr qaz ixracı planlaşdırılır. Turkiyə Enerji Nazirliyinin açıqlamasına görə, layihə çərçivəsində Azərbaycandan Türkiyəyə yönəldilən "mavi yanacağ"ın illik tədarükü 2 milyard kubmetrə qədər genişləndirilə bilər. İlkin tədarük olan 6 milyon kubmetr qaz, təxminən, 1,200 MW elektrik enerjisi istehsalına imkan verəcək. Bu da Suriyada gündəlik elektrik saatlarının həcmini hal-hazırkı 3-4 saatdan 10 saata qədər artıracaq.

Hesablamalara əsasən, 2024-cü ildə Azərbaycan təbii qaz ixracı rekord səviyyəyə çataraq 25,3 milyard kubmetr (2023-cü ilə nisbətən 23,9 milyard kubmetrdən çox) olmuşdur. 2024-cü il ərzində yalnız Türkiyəyə qaz tədarükü 11,48 milyard kubmetr (2023-lə müqayisədə 11,9 faiz çox) təşkil etmişdir. 2023-cü ilin yanvar – noyabr aylarında Türkiyəyə ixrac isə 9,295 milyard kubmetr (əvvəlki ilə nisbətən 17,4 faiz çox) olmuşdur.

Beləliklə, Suriya üçün nəzərdə tutulmuş layihə yalnız iqtisadi maraq məqsədlə deyil, həm də humanitar və bərpa məsələlərinə dəstək baxımından strateji addımdır. Bu layihənin ticari gəliri mövcud dövrdə aşağı ola bilər, çünki Suriyaya satışın tarifləri ehtimal ki, ucuzlaşdırılmış və hökumət subsidiyalı şərtlərlə həyata keçirilir. Bununla belə bu əməkdaşlıq Azərbaycanın regionda etibarlı və məsuliyyətli enerji tərəfdaşı kimi imicini möhkəmləndirir və Türkiyənin tranzit və regional enerji mərkəzi kimi rolu da güclənir.

İlkin mərhələdə illik 1,2 milyard kubmetr qaz ixracı Azərbaycan üçün əməliyyat gəlirlərinin əlavə mənbəyi olmaqla yanaşı, Suriya üçün həyati əhəmiyyət kəsb edir. Layihə geniş perspektivdə ildə 2 milyard kubmetrə arta bilər və birgə elektrik təminatı (1,000-1,200 MW) vasitəsilə müharibədən zərər çəkən bir ölkənin enerji infrastrukturunun bərpasına ciddi töhfə verməyi şərtləndirər. Bu əməkdaşlıq, eyni zamanda, Azərbaycanın iqtisadi diversifikasiyasını, coğrafi portfelini və geosiyasi nüfuzunu artırır, sadəcə enerji ixracatçısı olmaqla kifayətlənməyərək regionun bərpa prosesində fəal rol oynayan tərəfdaş kimi tanınmasını gerçəkləşdirir.

# Minsk qrupu ilə bağlı strukturlar bağlanmalıdır!

(əvvəli 1-ci səhifədə)

Helsinki prinsiplərinin bəzi iştirakçı dövlətlər tərəfindən təhrif olunması, selektiv yanaşma və ikili standartların tətbiqi ATƏT məkanında qeyri-sabitliyə, münaqişələrin uzanmasına və onların yenidən alovlanması riskinin artmasına səbəb olub. Xalqların öz müqəddəratını təyinetmə hüququ bəzi dövlətlər tərəfindən başqa ölkələrin ərazi bütövlüyünə və siyasi müstəqilliyinə qarşı yönəlib, təcavüzkar əməlləri əsaslandırmaq üçün təhrif olunub. Bu isə sülh proseslərinə maneələr yaradıb.

Azərbaycanın ATƏT yanında daimi nümayəndəliyinin bəyanatında qeyd edilir ki, ATƏT prinsiplərinə tam və qərəzsiz əməl olunması, təşkilatın bu istiqamətdə fəaliyyətinin gücləndirilməsi münaqişələrin həllinə mühüm töhfə verə bilər. Lakin 1992-ci ildə yaradılmış Minsk qrupu formatı illər ərzində münaqişənin ədalətli həllinə nail ola bilmədi. Həmsədr dövlətlər arasında koordinasiya çatışmazlığı, siyasi iradənin olmaması və qərəzli yanaşmalar Minsk prosesini formal və nəticəsiz platformaya çevirdi.

Azərbaycan 2020-ci ildə BMT Nizamnaməsinin 51-ci maddəsinə əsaslanaraq öz ərazi bütövlüyünü bərpa etdi ki, bununla da ATƏT-in uzun illər ərzində yerinə yetirə bilmədiyi mandatı özü həyata keçirdi. Bu addım regionda sülh və sabitlik üçün yeni imkanlar yaratdı. Bu şəraitdə Minsk qrupunun və digər srtukturların, o cümlədən Yüksək Səviyyəli Planlaşdırma Komitəsi və ATƏT sədrinin şəxsi nümayəndəliyinin saxlanması hüquqi və siyasi baxımdan məntiqsizdir. Xüsusilə, 2020-ci ildən sonra cəbhə xəttinin aradan qalxması və Azərbaycanın sərhədlərinə nəzarətin bərpası şəraitində ATƏT sədrinin şəxsi nümayəndəsinin funksiyaları qeyri-funksional hala gəlib. Lakin bu struktura hər il yüz minlərlə dollar ayrılması təşkilatın səmərəliliyi ilə bağlı haqlı suallar doğurur. Məsələn, təkcə 2021-ci ildə bu vəzifəyə 1,179,700 ABŞ dolları ayrılıb.

1994-cü ildə yaradılmış Yüksək Səviyyəli Planlaşdırma Komitəsi isə illərdir fəaliyyətsiz qalıb. Heç bir sülhməramlı missiya həyata keçirilməmiş, struktur, sadəcə, formal olaraq mövcudluğunu davam etdirib.

**

Bu gün Minsk qrupunun fəaliyyəti yoxdur. Hazırda Azərbaycan və Ermənistan arasında sərhədlərin delimitasiya və demarkasiyası ilə bağlı danışıqlar davam edir. Eyni zamanda, işğaldan azad olunmuş ərazilərə məcburi köçkünlərin qayıdışı sürətlənir. Bu proseslər Azərbaycanın ərazi bütövlüyünün tam bərpası və regionda davamlı sülhün təmin olunması istiqamətində atılan mühüm addımlardır. 2025-ci ildə bu istiqamətlər Azərbaycanın əsas fəaliyyət sahələrindən biri olaraq qalır.

Maraqlı məqamlardan biri odur ki, aparılan ikitərəfli danışıqlarda ATƏT-in Minsk qrupu iştirak etmir. Bu isə haqlı olaraq qurumun bu günə olan funksionallığı və ehtiyaclılığı ilə bağlı suallar doğurur. Bir sözlə, Minsk qrupunun əsas fəaliyyəti sülhə nail olmaq deyil, formal bəyanatlar vermək və beynəlxalq tədbirlərdə iştirakı ilə məhdudlaşırdı. Məcburi köçkünlərin geri qayıdışı məsələsində də bu qurum heç bir təsirli təşəbbüs irəli sürmədi. Parisdə, digər şəhərlərdə keçirilən beynəlxalq konfranslar, əslində, real nəticələrə deyil, daha çox görüntü yaratmağa xidmət etdi.

Reallıq ondan ibarətdir ki, Azərbaycan bu günə qədər münaqişənin beynəlxalq hüquq çərçivəsində və ədalətli həllinə nail olmaq üçün səbirli və konstruktiv mövqe sərgiləyib. Lakin illərlə bu mövqeyə ATƏT-in Minsk qrupu tərəfindən lazımi dəstək göstərilmədi. Bu gün regionda yaranmış yeni reallıqlar fonunda, Bakı və İrəvan arasında birbaşa danışıqlar və ikitərəfli mexanizmlər vasitəsilə sülhə nail olunması daha real və effektiv yoldur.

Bu baxımdan, Minsk qrupunun fəaliyyətsizliyini və nəticəsizliyini nəzərə alaraq, onun bu günkü sülh prosesində iştirakına ehtiyac qalmayıb. Mövcud vəziyyət bir daha göstərir ki, real nəticələrə yalnız tərəflər arasında birbaşa dialoq vasitəsilə nail olmaq mümkündür.

Onu da qeyd edək ki, Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarının birində ATƏT-in keçmişin qalıqları olan bir sıra mexanizmlərinin – bu xüsusda Minsk qrupu, Yüksək Səviyyəli Planlaşdırma Komitəsi və ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi kimi tamamilə fəaliyyətsiz strukturların ləğv edilməsinin vaxtının çoxdan yetişdiyini vurğulayıb.

**Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin baş məsləhətçisi Mətin Məmmədli XQ-yə bildirdi ki,** Azərbaycan bu strukturların ləğvini və ATƏT-in resurslarının daha səmərəli istiqamətlərə yönəldilməsini zəruri hesab edir: “Hesab edirəm ki, belə bir qurumun strukturunu saxlamaq bölgədə münasibətlərin normallaşmasını istəməyən güc mərkəzlərininin maraqlarına uyğundur. Onlar çalışırlar ki, Minsk qrupu mövcudluğunu davam etdirsin və əllərində təsir vasitələri olsun. Ancaq Azərbaycan mövqeyini ortaya qoyub. Bu mövqe ona əsaslanır ki, artıq münaqişə həllini tapıb və Minsk qrupunun fəsliyyətinə son qoyulmalıdır”.






*

**Politoloq Tural İsmayılov** də hesab edir ki, Azərbaycanın ATƏT yanında daimi nümayəndəliyinin “Helsinki+50” konfransı çərçivəsində verdiyi bəyanat həm prinsipial, həm də strateji cəhətdən ciddi əhəmiyyətə malikdir: “Burada açıq şəkildə ATƏT-in son onilliklərdə ikili standartlarla hərəkət etdiyi və selektiv yanaşmanın qurumun etibarlılığını zəiflətməsi vurğulanır. Bu, Azərbaycanın yalnız öz maraqları naminə deyil, ümumən beynəlxalq təhlükəsizlik və hüququn nüfuzu naminə etdiyi xəbərdarlıqdır. Xüsusilə Minsk qrupuna yönəlik tənqid – onun fəaliyyətsizliyi və real nəticə doğurmayan, status-kvonu qorumağa yönəlmiş “vasitəçiliyi” – Azərbaycanın haqlı mövqeyini bir daha gücləndirir. Bu struktur tarixi missiyasını itirib və onu formal olaraq ləğv etməyin vaxtıdır. Nümayəndəliyin “ləğv olunmalıdır” ifadəsi artıq ritorik deyil, hüquqi və siyasi çağırışdır”.

Ekspertə görə, Azərbaycan ATƏT daxilində mövcud olan ədalətsizlikləri və ikitərəfli yanaşmaları ifşa etməklə yanaşı, yeni təhlükəsizlik arxitekturası üçün regional güc mərkəzi kimi sözünü deyir: “Qısası, bu bəyanat həm ATƏT-ə, həm də ona arxalanan dairələrə açıq mesajdır: artıq yeni reallıq var və bu reallığın adı Azərbaycan gerçəkliyidir”.



Beləliklə, təşkilat yalnız keçmiş təcrübələrdən dərs çıxararaq və dəyişən reallıqlara uyğunlaşaraq gələcəkdə effektiv təhlükəsizlik platforması kimi fəaliyyət göstərə bilər. Transmilli təhdidlərə və qeyri-hərbi təhlükəsizlik çağırışlarına cavab verən əməkdaşlıq modellərinin təşviqi ATƏT-in fəaliyyətində əsas istiqamətlərdən biri olmalıdır.

Azərbaycan bir daha ATƏT prinsiplərinə – suverenlik, ərazi bütövlüyü, dövlətlərin bərabərliyi və daxili işlərə qarışmamaq prinsiplərinə sadiqliyini, təşkilatla əməkdaşlığa öz milli maraqları çərçivəsində açıq olduğunu bəyan edir. Bu yanaşma Azərbaycanın post-münaqişə dövründə özünü güclü və təsirli regional güc kimi təsdiqlədiyinin əyani göstəricisidir.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

# Abramyanın “vətən, millət” pərdəsinə bürüdüyü siyasi hiyləsi

## *Aranın hakimiyyət ehtirası Ermənistana sabitlik yox, xaos vəd edir*

**“Rusiya Erməniləri İttifaqı” ictimai təşkilatının sədri, Dünya Erməniləri Konqresinin prezidenti Ara Abramyan 2026-cı ilin iyunun 7-də Ermənistanda keçiriləcək parlament seçkilərində hazırkı baş nazir Nikol Paşinyana qarşı çıxan siyasi qüvvələrin birləşməsinə kömək edəcəyini açıqlayıb. O, bu barədə TASS-a müsahibəsində bildirib.**

“Qarşıdan gələn seçkilərdə iştirak etmək niyyətində deyiləm. Lakin Ermənistanı dirçəltmək naminə diaspor da daxil olmaqla, mövcud iqtisadi və insan potensialından istifadə edərək ardıcıl və vətən sevgisi ilə çıxış etməyə qadir olan sağlam qüvvələrin birləşməsinə kömək etmək üçün bütün imkanlarımdan istifadə edəcəyəm” – deyən Abramyan Paşinyan hökumətini sərt tənqid edib. Deyib ki, Paşinyan iqtidarı Qarabağı itirib, ölkənin ən mühüm obyektlərinə nəzarəti əcnəbilərə verir, Ermənistanın borcunu artırır və bu, qiymətlərin artmasına səbəb olur: “Son yeddi ilin tarixi göstərir ki, Paşinyan ictimai əhval-ruhiyyəni manipulyasiya edərək, ona inanan insanları bu gün şahidi olduğumuz yalanın və milli faciənin istəmədən iştirakçılarına çevirib”.





Qeyd edək ki, Ermənistanda 2026-cı ildə keçiriləcək parlament seçkilərinə hazırlıq fonunda son aylar daxili siyasi vəziyyət pisləşib. Baş nazir Paşinyan Qarabağ klanına bağlı qüvvələri qanunsuz yolla hakimiyyəti ələ keçirməyə hazırlaşmaqda ittiham edib, bununla bağlı səsyazılarını ictimailəşdirib. Bu ittihamlarla Rusiyada və Ermənistanda fəaliyyət göstərən iş adamı, milyarder Samvel Karapetyan və iki arxiyepiskop (Baqrat Qalstanyan və Mikael Acapaxyan) saxlanılıb. Nikol, eyni zamanda, Erməni Apostol Kilsəsini də kəskin tənqidə məruz qoyub. İndi isə görünən odur ki, Paşinyanın devrilməsi istiqamətində dövriyyəyə Rusiyada yaşayan nüfuzlu, varlı-hallı ermənilərin, necə deyərlər, yeni partiyası buraxılır. A.Abramyan bu qüvvələrin tipik nümayəndəsidir. Hesab edirik ki, onun Rusiyanın dövlət informasiya agentliyinə geniş müsahibə verməsinə də bu çərçivədə yanaşılmalıdır.

Ümumiyyətlə, Abramyan son həftələrdə N.Paşinyan hökumətini tənqid edən bir sıra müsahibələr verib. Bu hadisələr fonunda Ermənistanın Korrupsiyaya Qarşı Mübarizə Məhkəməsi onun İrəvanın mərkəzində – keçmiş “Uşaq aləmi” binasının yaxınlığında yerləşən torpaq sahəsini müsadirə edib. 2860 kvadrat metrlik torpaq sahəsi Abramyana məxsus “Soqlasie–Armenia” şirkətindən müsadirə edilərək İrəvan meriyasının mülkiyyətinə verilib. Abramyan məhkəmənin qərarını siyasi sifariş adlandırıb. Halbuki, torpaq sahəsinin qeyri-qanuni özəlləşdirilməsi iddiası ilə bağlı cinayət işi 2023-cü ildə açılıb. Daha sonra İrəvan meriyası mülki iddia qaldırıb və bunun əsasında məhkəmə şirkətin aktivlərinə məhdudiyyətlər, o cümlədən kadastr əməliyyatlarının aparılmasına qadağa qoyub.

Rusiya ermənilərinin başçısı uzun müddət özünü heç nəyə qarışmayan persona kimi göstərirdi. Əslində isə 2018-ci ildən sonra Paşinyan komandasına qarşı mühafizəkar, köhnə sistem tərəfdarı olan dairələrin nümayəndəsi kimi çıxış edirdi. Ta o vaxta qədər ki, onun əmlakı müsdirə edilməmiş və Rusiyadakı müəyyən dairələr tərəfindən düyməyə basılmamışdı. Bu gün isə Ara özünü, obrazlı desək, qəzəblə rinqə çıxmağa hazır “boksçu” kimi aparır. Ermənistanda bəzi politoloqlar, məsələn, Benamin Poqosyan və Qrant Mikaelyan onun Rusiyanın Ermənistana təsir göstərmək üçün istifadə etdiyi diaspor fiquru olduğunu bildirirlər.

A.Abramyanın Ermənistan paytaxtında başqa mülkləri də var. Bir neçə il əvvəl Hayastan KİV-ləri onun həyata keçirdiyi, tamamlaya bilmədiyi uzunmüddətli tikinti layihəsinin şəhərin mərkəzini eybəcərləşdirməsi, satın aldığı mərkəzi univermağın binası və sair haqqında yazırdı. Erməni mediası Aranın layihələrini niyə başa çatdırmadığını öyrənə bilməmişdi. Belə bir versiya var idi ki, o, Müəmmar Qəddafi dövründə Liviya iqtisadiyyatına 1 milyard dollardan çox sərmayə qoyandan sonra müflis olub. Qəddafi edam olunanda Ara kədər qarışıq təəssüflə demişdi: “Qəddafi ölkəni, mən pulumu itirdim”.

*

Onu da bildirək ki, Abramyanın rəhbərlik etdiyi diaspor strukturları zaman-zaman Azərbaycan əleyhinə yönəlmiş təbliğat kampaniyalarında fəal iştirak ediblər. Xüsusilə 44 günlük müharibədən sonra Abramyanın təşkilatları Rusiyada, Fransada və ABŞ-da Azərbaycana qarşı yönəlmiş sərgilər, konfranslar və mediada qərəzli çıxışlar təşkil edib. Onun dəstəyilə 2021-ci ilin aprelində Parisdə təşkil olunan “Artsax – sivilizasiyanın beşiyi” adlı sərgidə Qarabağ “müstəqil dövlət” kimi təqdim edilmişdi. Sərgidə Qarabağ ermənilərinin, guya, “soyqırıma məruz qalması” iddiası irəli sürülmüşdü. Bu məsələ Fransadakı Azərbaycan diasporu və Parisdəki səfirliyimiz tərəfindən sərt tənqid edilmişdi.

2005-ci ildə Fransanın yüksək dövlət mükafatı – Fəxri Legion ordeni ilə təltif olunan Abramyan uzun illər Beşinci Respublikadakı erməni diasporu ilə sıx əlaqələr qurmağa çalışsa da, burada uğur qazana bilməyib. Çünki o, çox vaxt Kremlyönlü fiqur kimi təqdim olunub və bu, onun Parisdəki dairələrdə mənfi qarşılanması ilə nəticələnib. 2022-ci ildə Fransadakı bir neçə erməni təşkilatı onu erməni məsələsindən Rusiyanın maraqları üçün istifadədə ittiham etmişdi. Fransa Erməni Təşkilatlarının Koordinasiya Şurası (CCAF) bəyanatlarında Abramyanın fəaliyyəti ikiüzlü diplomatiya kimi dəyərləndirilmişdi. Təşkilat hətta, Abramyanın 2019-cu ildə Parisə səfəri zamanı onunla əməkdaşlığı rədd etmişdi. Səbəb kimi onun Rusiyayönlü mövqeyi və erməni məsələsini siyasi alverə çevirməsi göstərilmişdi. Təşkilatın açıqlamasında qeyd olunmuşdu ki, Abramyanın fəaliyyəti Fransadakı erməni diasporunun prinsipial mövqeyi ilə ziddiyyət təşkil edir.

Abramyandan bəhs edərkən onun İkinci Qarabağ müharibəsindən sonra keçmiş qondarma separatçı rejimin bəzi üzvləri ilə təmaslarını davam etdirməsi də yaddan çıxmamalıdır. O, 2021-ci ildə Arayik Arutyunyanla Moskvada görüşü zamanı Qarabağı “erməni torpağı” adlandırmışdı. Təbii ki, bu bəyanat ölkəmizdə ciddi tənqid olunmuşdu.

Abramyanla bağlı tənqidi məqamlardan biri də onun şəxsi biznes maraqları naminə Rusiyadakı erməni diaspor strukturlarından sui-istifadə etməsi ilə bağlıdır. Qeyd edilir ki, 2000–2010-cu illərdə Abramyan rəhbərlik etdiyi Dünya Erməniləri Konqresi vasitəsilə bir neçə daşınmaz əmlak və inşaat layihəsində dövlət sifarişlərini almağa nail olduğu sənədləşdirilib. “Novaya qazeta” Abramyanın bu fəaliyyətini diaspor diplomatiyasının kommersiyalaşdırılması kimi qiymətləndirmişdi. 2005-ci ildə Abramyanın adı Moskva vilayətinin Krasnoqorsk şəhərində inşaat layihələri ilə bağlı korrupsiya qalmaqalında qeyri-rəsmi şəkildə hallanmışdı. Araşdırmaçı jurnalistlər onu icma lideri qiyafəsində biznesmen-korrupsioner adlandırırdılar.

2013-cü ildə isə Rusiyadakı erməni icmasının nümayəndələri onun istefasını tələb edirdilər. Digər şikayətlərlə yanaşı, qeyd edilirdi ki, “Rusiya Erməniləri İttifaqı” federal mətbuatda gedən anti-erməni xəbərlərə və Rusiyada ermənilərin mülki və milli hüquqlarının pozulmasına adekvat reaksiya vermir.

2015-ci il yanvarın 17-də A.Abramyan və onun müavini Levon Mukanyanın istefası tələbi ilə petisiyaya start verilmişdi. Müraciətin mətnində deyilirdi ki, Abramyan Rusiyada erməni diasporunun lideri rolunu öz üzərinə götürəndən bəri diaspor, demək olar ki, inkişaf etməyib. Rusiyadakı erməniləri qəzəbləndirən və Abramyanın istefasını tələb etməyə çağıran məqamlardan biri də 2015-ci il yanvarın 12-də Rusiyanın Gümrüdəki 102-ci bazasının hərbçisi Valeri Permyakov tərəfindən 6 Ermənistan vətəndaşının qətlə yetirlməsi hadisəsinə ittifaqın hər hansı mövqe bildirməməsi idi.

İndi belə mənfi reputasiyaya, korrupsiya iddialarına və qaranlıq biznes əlaqələrinə malik şəxsin – Ara Abramyanın Ermənistan siyasətinə daxil olması cəmiyyətdə ciddi suallar doğurur. Əmlak qalmaqalları, separatçılığa dəstək verən ritorikası və xaricdən yönləndirilən təsir imkanları ona qarşı inamsızlıq yaradır. Ermənistan vətəndaşları artıq dezinformasiyalardan, onlardan istifadə edən diaspor-lobbi cütlüyünün oyunlarından və xaricdən öz soydaşları tərəfindən edilən müdaxilələrdən yorulublar. Belə şəraitdə Abramyanın “xilaskar” obrazında təqdim olunması, əksinə, ictimai müqavimət doğura bilər. Ehtimal etmək olar ki, cəmiyyətin böyük hissəsi 2018 və 2021-ci illərdə olduğu kimi, indi də belə odioz fiqurlara “yox!” deyəcək.

***Səxavət HƏMİD***
***XQ***








# "Ermənistan yorulub, Rusiya zəifləyib, Azərbaycan isə dünyaya açılır"

## *İsrailin keçmiş rabitə naziri Qarabağa səfəri barədə yazdığı məqalədə maraqlı məqamlara toxunub*

**Məqalənin icmalına keçməzdən əvvəl onu qeyd etmək istərdik ki, Azərbaycan otuz ildən sonra işğalçını əzəli torpaqlarından biabırçı şəkildə qovduqdan sonra Qarabağ və ətraf bölgələrdə geniş bərpa-quruculuq dövrü başlandı. Bununla paralel olaraq, özünün Şərqlə Qərb, Şimalla Cənub arasında mədəniyyətlər və sivilizasiyalararası, siyasi-iqtisadi mərkəz kimi mühüm geosiyasi rolunu təsdiqləmiş oldu. Beləliklə, rəsmi Bakı düşünülmüş, praqmatik xarici siyasəti sayəsində hazırkı nüfuzunu və mövqeyini beynəlxalq hüququn imkan verdiyi yolla, heç kəsə xələl gətirmədən qazandı.**



*

İsrailin keçmiş rabitə naziri Ayub Kara Azərbaycanın işğaldan azad edilmiş ərazilərinə növbəti səfəri ilə bağlı qələmə aldığı məqaləsində diqqəti Cənubi Qafqazın geosiyasi mənzərəsini kökündən dəyişməyə qadir Zəngəzur dəhlizi ətrafında gedən proseslərə yönəldir. Cənab Kara yazır ki, Ermənistan baş naziri Nikol Paşinyanın ABŞ-ın təklif etdiyi və Azərbaycanın dəstəklədiyi Zəngəzur dəhlizinin tezliklə açılması planı ilə bağlı mövqeyi təkcə İrəvanın xarici siyasət kursunun dəyişməsindən deyil, həm də regional və qlobal oyunçular arasında bölgəyə təsir balansının yenidən bölüşdürülməsindən xəbər verir.

### "Paşinyan mövqeyini buna görə dəyişdi"

Müəllif qeyd edir ki, Azərbaycan qərb rayonlarını Naxçıvanla birləşdirəcək Zəngəzur layihəsinin həyata keçirilməsini özünün qanuni hüququ kimi qəbul edir, Ermənistan isə ərazisi üzərində suverenliyinin itirilməsindən, Bakı və Ankaranın İrəvana təzyiqlərinin artmasından ehtiyat edərək, bu nəqliyyat marşrutunun yaradılmasına uzun müddətdir ki, müqavimət göstərir. Amma son vaxtlar Nikol Paşinyanın mövqeyində müşahidə olunan dəyişiklik, müəllifin qeyd etdiyi kimi, daxili və xarici amillərin birləşməsindən qaynaqlanır. "Ermənistanda daxili siyasi vəziyyət uzun sürən böhranlardan ictimai yorğunluq və ölkənin təhlükəsizliyinin əsas təminatçısı olan Rusiyanın Azərbaycanla son eskalasiyalar zamanı erməni maraqlarının müdafiəsində qətiyyət nümayiş etdirməyən müttəfiqlik öhdəliklərindən məyusluq ilə xarakterizə olunur" – yazan Kara məhz bu amilin nəticəsində İrəvanda xarici siyasətin yenidən Qərbə istiqamətlənməsi zərurətinin başa düşülməsini önə çəkir.

Məqalədə İrəvan Regional Araşdırmalar Mərkəzinin direktoru Riçard Qiraqosyanın şərhinə də yer verən sabiq nazir ondan sitat gətirir: "Ermənistanın təhlükəsizlik məsələlərində yalnız Rusiyaya bel bağlamaq getdikcə daha məqsədəuyğundur. Zəngəzur dəhlizinin reallaşması beynəlxalq təminatlarla müşayiət olunarsa, bu layihə Ermənistana nəinki iqtisadi fayda gətirmək, hətta onun geosiyasi oriyentasiyasını dəyişmək gücündə olacaq. ABŞ diplomatiyasının Cənubi Qafqazda fəallaşması Vaşinqtonun regionun iqtisadi qarşılıqlı əlaqəsini gücləndirmək və Moskvanın təsirini məhdudlaşdırmaq istəyini əks etdirir. Avropa İttifaqı danışıqlarda birbaşa iştirakdan imtina etsə də, Rusiya ərazisindən yan keçəcək yeni ticarət yollarını dəstəkləməkdə maraqlı olduğunu bildirib".

Müəllifə görə, İrəvanın Qərbə üz tutması ABŞ-ın strategiyasına uyğundur və Ermənistanın xarici əlaqələrini diversifikasiya etmək, Rusiyadan asılılığını azaltmaq istəyindən xəbər verir. Bununla belə, Moskva Ermənistanda hərbi mövcudluğunu saxlayır və dəyişən geosiyasi tarazlığa daha sərt reaksiya vermək iqtidarındadır.

Ayub Kara göstərir ki, Rusiyanın Ukraynaya qarşı müharibəsi Moskvanın Cənubi Qafqazda ənənəvi dominantlığını zəiflətdi, Azərbaycan isə öz hərbi və diplomatik mövqelərini xeyli gücləndirdi. Bakı bununla paralel olaraq həm Türkiyə, həm də Qərb dövlətləri ilə əlaqələri fəal şəkildə inkişaf etdirdi və bu zaman Rusiyanın vasitəçiliyindən yan keçdi.

### "Zəngəzur layihəsi tarixi birlliyə doğru addımdır"

"Azərbaycan üçün Zəngəzur dəhlizi təkcə iqtisadi deyil, həm də simvolik əhəmiyyətə malikdir" – yazan müəllif bu layihəni ərazilərin tarixi birləşməsi və Türkiyəyə birbaşa nəqliyyat marşrutunun açılması istiqamətində atılan mühüm addım kimi qiymətləndirilir: "Eyni zamanda, Ankara bu marşrutu Rusiya və İrandan yan keçərək Cənubi Qafqaz və Mərkəzi Asiya vasitəsilə Avropa ilə Asiyanı birləşdirən Orta Dəhliz strategiyasının bir hissəsi kimi qəbul edir. Tehran isə hələlik layihəni tənqid edir, onun əsas tranzit ölkə kimi rolunun zəifləyəcəyindən və ticarət yollarının öz ərazisindən uzaqlaşacağından ehtiyatlanır". Bunun ardınca keçmiş nazir haqlı olaraq qeyd edir ki, potensial iqtisadi faydalara baxmayaraq, Ermənistan daxilində Zəngəzur layihəsinə münasibət ziddiyyətli olaraq qalmaqdadır: "Millətçi qruplar bu dəhlizin açılmasının Ermənistanın suverenliyinə xələl gətirəcəyini və Azərbaycana həddindən artıq əlavə təsir rıçaqları verəcəyini iddia edirlər. İrəvanda Paşinyanın qəbul etdiyi güzəştlərə qarşı etirazlar hələ də davam edir. Yerli politoloqlar xəbərdarlıq edirlər ki, etibarlı təhlükəsizlik zəmanəti olmadan dəhlizin açılması baş nazirə siyasi karyerasını bitirməsi bahasına başa gələ bilər".

Ayub Kara daha sonra vurğulayır ki, Zəngəzur dəhlizi təkcə nəqliyyat layihəsi deyil, regional və dünya güclərinin maraqlarının bir-birinə qarışdığı "böyük geosiyasi oyunun" elementidir. Bu kontekstdə müəllifin gəldiyi qənaət müəyyən suallar yaratsa da, maraqlıdır: "Azərbaycan üçün bu layihə qələbə və regional üstünlük rəmzidir. Ermənistan üçün iqtisadi imkanla yanaşı, həm də zəiflik mənbəyidir. Qərb üçün isə Rusiya və İranın Avrasiya ticarətinə təsirini azaldan yeni marşrutlar qurmaq şansıdır".

### "İrəvanın qlobal ticarət şəbəkəsinə inteqrasiya perspektivi"

Məqalə müəllifinin fikrincə, Paşinyanın verəcəyi siyasi qərar müasir Ermənistanın tarixində həlledici məqam ola bilər. "Azərbaycan və ABŞ-ın təşəbbüsünə qoşulmaq İrəvana qlobal ticarət şəbəkələrinə inteqrasiya perspektivini vəd etsə də, bu, eyni zamanda, ənənəvi təhlükəsizlik təminatlarının itirilməsi və daxili siyasi təzyiqlərin artması təhlükəsini yaradır. Yaxın aylarda İrəvanın strateji seçiminin Cənubi Qafqazda sabitliyə və çiçəklənməyə gətirib çıxaracağı, yoxsa münaqişənin həll olunmamış qaldığı və qüvvələr balansının son dərəcə kövrək olduğu regionda yeni gərginlik dalğasının mənbəyinə çevriləcəyi bəlli olacaq".

**P.S.** İsrailin keçmiş rabitə naziri Ayub Karanın bölgədə baş verənlərlə bağlı fikirlərinə əlavə olaraq bəzi məqamlarlı oxucuların diqqətinə çatdırmağı münasib sayırıq. Bu gün dünyanı bürümüş qlobal xaos Azərbaycan təcrübəsini bir daha aktuallaşdırır ki, bu da strateji vəzifələrin ikinci, üçüncü tərəfə zərər vermədən həyata keçirilməsidir. Bakının həm daxili, həm də xarici platformalarda atdığı taktiki addımlar yaradıcı paradiqma formalaşdırır. Bu amil ayrı-ayrı qüvvələrin ölkələrin, bütöv xalqların, hətta regionların taleyini həll etmək hüququnu "özəlləşdirmək" istəyi fonunda xüsusilə aktuallaşır. Doğrudur, "forpost" statuslu ölkələr yalnız ritorika baxımından, elementar insan hüquqlarının kobud şəkildə pozulması kontekstində müəyyən aktivlik nümayiş etdirirlər. Amma aşkar görünən odur ki, ayrı-ayrı dövlətlər özbaşına "dünya hökmdarları" mantiyasını öz üzərlərinə götürüblər və kimin harada və necə yaşadığına qərar verirlər. Son 30 ildə Yaxın Şərqdə və Avropada baş verən hadisələr göstərdi ki, bu yanaşma sonda dalana dirənir. Vahid strategiyanın olmadığı çoxistiqamətli səylərin istənilən effekti vermədiyi bir yana, əksinə, müxtəlif tərəflərdən tənqidə məruz qalır.

Məhz bütün bunların fonunda milli və dini mənsubiyyətindən asılı olmayaraq vətəndaşı üçün ümumi məqsəd formalaşdıran Azərbaycanın təcrübəsi bir daha aktuallaşır. Ona görə də özlərini, belə demək mümkünsə, "kainatın mərkəzi" hesab edən ölkələr Azərbaycandan – onun yaratdığı çağdaş tarixdən nümunə götürsələr yaxşı olar.

*Hazırladı:*
***İmran BƏDİRXANLI***
***XQ***

# Diplomatiyasayağı müdaxilə

## *Aİ-nin Ermənistandakı mülki missiyası və Kanadanın ikili yanaşması*



**Kanadanın Ermənistandakı səfiri Endryu Ternerin son zamanlar Tavuş bölgəsinə səfəri, orada İcevanın və Diliçanın merləri ilə keçirdiyi görüşlər Ermənistanla münasibətlərin dərinləşməsi üçün rəsmi Ottavanın göstərdiyi marağın vizual ifadəsi oldu. Səfirin "Kanada bütün Ermənistanla əlaqələri gücləndirməkdə maraqlıdır" sözləri səmimi diplomatik bəyanat təsiri bağışlasa da, bu kimi səfərlər Qərbin Ermənistanı geosiyasi çəkişmələrdə daha da mərkəzə çəkən siyasətinin tərkib hissəsidir.**



Səfirin səfəri və onun ardınca yayımlanan mesajlar Avropa İttifaqının Ermənistandakı mülki missiyasına verilən dəstəyin kontekstində nəzərdən keçirildikdə, daha çox təzyiq vasitəsi kimi görünür. Həmin missiya "sabitliyin təşviqi" adı altında bölgəyə yerləşdirilsə də, əslində, Ermənistan–Azərbaycan sülh prosesinin hazırkı mərhələsində obyektivlikdən uzaq, birtərəfli və siyasi mahiyyət daşıyan fəaliyyətləri ilə seçilir. Məsələ xüsusən də sülh prosesinin strukturlaşdırılmağa başlandığı bir dövrdə son dərəcə zərərli tendensiyadır.

"Qoca qitə"dən uzadqa yerləşməsinə baxmayaraq, Kanada Avropa İttifaqının bu missiyasının fəal tərəfdaşlarından biri kimi çıxış edir. Belə bir mövqe özü-özlüyündə risklidir, çünki Cənubi Qafqazda sülhə və sabitliyə deyil, daha çox təsir dairələri uğrunda rəqabətə əsaslanan davranış modeli formalaşdırır. Aİ-nin mülki müşahidə missiyası bölgəyə yerləşdirilən zaman onun əsas funksiyası sərhəddəki gərginliyi aradan qaldırmaq, şəffaflığı təmin etmək və qarşılıqlı etimad mühiti yaratmaq idi. Lakin praktikada bu missiya təkcə Ermənistan ərazisində, yalnız rəsmi İrəvanın mövqeyindən çıxış edərək və yalnız Azərbaycanın ünvanına yönələn narrativləri legitimləşdirmək məqsədilə fəaliyyət göstərir.

Kanada kimi beynəlxalq hüququ və neytrallığı önə çəkən bir dövlətin belə bir missiyanın aktiv iştirakçısı olması onun diplomatik reputasiyası baxımından haqlı suallar doğurur. Əgər Kanada Cənubi Qafqazda vasitəçi roluna iddialıdırsa, o zaman neytral mövqe tutmalı, hər iki tərəfə eyni məsafədən yanaşmalı idi. Lakin Kanadanın davranışları, o cümlədən Ermənistanda yerli rəhbərliklə yaxın təmasları obyektivlik prinsipinə uyğun gəlmir. Məsələ burasındadır ki, Aİ missiyası texniki müşahidə mexanizmi olmaq əvəzinə, faktiki olaraq Ermənistanın siyasi himayədarına çevrilib.

Azərbaycan–Ermənistan münasibətlərində indi yaşanan mərhələ yeni reallıqlarla müəyyən olunur. Ərazi bütövlüyü prinsipinin faktiki bərpası və Cənubi Qafqazın geosiyasi xəritəsində Azərbaycanın artan rolu sülhün yalnız qarşılıqlı etimada əsaslanmaqla mümkün olduğunu göstərir. Lakin Ermənistanın daxilində yerləşdirilmiş və yalnız bir tərəfin təhlükəsizlik ehtiyaclarını təmin etdiyini dilə gətirən mülki missiya, əslində, qarşılıqlı etimadın sıradan çıxmasına xidmət edir.

Burada diqqətəlayiq olan məqam odur ki, Aİ missiyasının fəaliyyəti Ermənistan daxilində də getdikcə sual altına alınır. Ermənistan siyasi dairələrində və ekspert çevrələrində bu missiyanın real nəticə vermədiyi, sadəcə görüntü yaratmaqla məşğul olduğu, sülh prosesinə töhfə vermək əvəzinə onu ləngitdiyi barədə fikirlər güclənməkdədir. Məhz bu kontekstdə, Kanadanın missiyadakı iştirakı onun regional sabitliyə real töhfə vermək əvəzinə, daha çox Ermənistanı təcrid olunmuş psixoloji zonada saxlamaq məqsədinə xidmət etdiyini göstərir.

Digər tərəfdən, bu missiya Azərbaycan ictimai rəyində də haqlı narazılıq doğurur. Rəsmi Bakı haqlı olaraq sual edir: əgər bu missiya "sülh və sabitlik" üçün qurulubsa, niyə yalnız Ermənistan ərazisindədir? Niyə münaqişə tərəfləri arasında balanslı təmaslar qurulmur? Nə üçün bu missiyanın mandatı Ermənistan–Azərbaycan münasibətlərində real gərginlik yaradan məsələlərə – Ermənistanın bəzi revanşist qüvvələrinin ritorikasına, sərhəd təxribatlarına və ya sülh danışıqlarındakı manipulyasiyalara toxunmur?



Sülh prosesinin inkişafı üçün ən vacib şərtlərdən biri regiondankənar aktorların balanslı, neytral və ədalətli mövqe nümayiş etdirməsidir. Əks təqdirdə belə tərəfkeş mövqe regionda yeni gərginlik dalğaları yaradacaq. Kanada kimi dövlətlər bu kontekstdə daha konstruktiv rol oynaya bilər. Amma yalnız o halda ki, real vasitəçilik və etimadın qurulmasına xidmət edən davranış sərgiləsinlər. Yoxsa, diplomatik jestlər fonunda birtərəfli təsir oyunları oynamaq regionda nə sülhə, nə də sabitliyə xidmət edəcək.

Son olaraq qeyd edə bilərik ki, Aİnin Ermənistandakı mülki missiyası bu formada davam etdiyi təqdirdə, onun fəaliyyətinə dəstək verən dövlətlər – o cümlədən Kanada – Cənubi Qafqazda mənfi təsir amili kimi qəbul ediləcək. Əgər həqiqətən də regionda davamlı sülhün bərqərar olması hədəflənirsə, o zaman bu cür missiyalar ya neytrallaşdırılmalı, ya da, ümumiyyətlə, dayandırılmalıdır. Əks halda, sülh prosesi daha bir zərbə alacaq və regional sabitlik yalançı müşahidələr altında pozulacaq.

***Şəbnəm ZEYNALOVA,***
***XQ-nin siyasi analitiki,***
***siyasi elmlər üzrə fəlsəfə doktoru***

*Qərbi Azərbaycan TV-nin 2 yaşı tamam oldu*

# Qayıdış yollarını işıqlandıran ekran




**Qərbi Azərbaycan İcmasının (QAİ) nəzdində yaradılmış "Qərbi Azərbaycan TV" internet televiziyası fəaliyyətinin 3-cü ilinə qədəm qoydu.**

2023-cü il avqustun ilk günlərindən ilkin olaraq həftədə 4 dəfə 2 saat yayımlanmış bu internet kanalı ötən dövrdə Qərbi Azərbaycan həqiqətlərini görüntüləndirməklə yanaşı, QAİ-nin də fəaliyyətini ardıcıl olaraq işıqlandırıb. 2024-cü ilin mayında yeni binaya köçdükdən sonra TV rus və ingilis dillərində buraxılış və verilişlər də yayımlamağa başlayıb.



Qısa müddətdə formalaşdırılmış peşəkar komandanın təqdim etdiyi "Müzakirə vaxtı" proqramı, informasiya süjetləri, Qərbi Azərbaycan mədəniyyətinə dair verilişlər, soydaşlarımızın Vətən ağrı-acısını əks etdirən materiallar, son 2 əsrdə Qərbi Azərbaycanda soydaşlarımızın, tarixi-mədəni abidələrimizin, toponimlərimizin üzləşdiyi vandallıq aksiyaları, eləcə də qayıdış məqsəd və məramı ilə bağlı maarifləndirici söhbətlər telekanala geniş və mötəbər auditoriya qazandırıb.

Telekanalda ümummilli lider Heydər Əliyevin Qərbi Azərbaycanla bağlı fəaliyyətinə dair "Ulu öndər və Qərbi Azərbaycan", Prezident İlham Əliyevin Qərbi Azərbaycana dair gördüyü işlərlə bağlı "Qərbi Azərbaycana doğru", Qayıdış Konsepsiyasına dair "Qayıdış haqqımızdır", soydaşlarımızın başlarına gələn müsibətləri əks etdirən "İnsanlıq əleyhinə", o cümlədən Qərbi Azərbaycanın maddi və qeyri maddi–mədəni irsini özündə əks etdirən "Deportasiyaya uğrayan irs", "Addım-addım Qərbi Azərbaycan", "Ədəbi İrəvan", "Qərbi Azərbaycan ləzzətləri" kimi verilişlər hərəkatın genişlənməsində və güclənməsində önəmli rol oynayır.

***QAİ İdarə Heyəti sədri, Milli Məclisin deputatı Əziz Ələkbərli XQ-yə açıqlamasında söylədi:***



– Qərbi Azərbaycan Televiziyası mərhələlərlə öz el-obasından deportasiya edilən soydaşlarımız, Qərbi Azərbaycanda məhv edilən irsimiz barədə həqiqətlərin çatdırılmasına, o cümlədən sülh yolu ilə, təhlükəsiz və ləyaqətlə geri qayıdış uğrunda aparılan fəaliyyətə yaxından dəstək olmaqla, bütün işini bu istiqamətə kökləyib. Kanal Qərbi Azərbaycanın zəngin irsinin, tarixinin, mədəniyyətinin təbliği baxımından da mühüm əhəmiyyət daşıyır. Bu televiziya doğma yurdlarından didərgin salınmış bir elin səsini dünyaya yayan, susdurulmuş bir tarixə işıq tutan, yaddaşı oyadan bir ocaqdır.

Uzun illər Azərbaycan televiziyasında müxtəlif vəzifələrdə çalışmış tanınmış telejurnalist, Teleradio Akademiyasının rektoru Telli Pənahqızının Qərbi Azərbaycan Televiziyasına rəhbər təyin edilməsi kanalın fəaliyyətinə yüksək peşəkarlıq, verilişlərinə populyarlq gətirib. Telli xanım yüksək və zəngin televiziya məktəbi keçmiş, onlarla layihəyə rəhbərlik etmiş, gənc jurnalistlərin yetişməsində mühüm rol oynamış, bir çox yaradıcı qrupun formalaşmasında əməyi olan ustad jurnalistdir. Bu gün o, on illərdən bəri həsrət qaldığı doğma torpağın adını daşıyan bir televiziyanın yönləndiricisidir.

***Telli Pənahqızı rəhbərlik etdiyi TV kanalının 2 yaşının tamam olması münasibətilə qəzetimizin oxucularına üz tutaraq bildirdi:***

– Bu gün Qərbi Azərbaycan Televiziyasının 2 yaşı tamam olur! Bu televiziya bizim indi qəriblikdə qalan əzəli və əbədi torpaqlara qayıdış arzularımıza dinc yolla nail olmaq naminə bütün istəklərimizi bölüşmək, yada- yağıya qalan yurd yerlərimizə dönmək arzusunda olan hər bir Vətən sevdalısı dostumuzun və onların övladlarını məlumatlandırmaq uçun bir informasiya, xəbər qaynağıdır.

Qərbi Azərbaycan TV yeni bir mübarizənin televiziyasıdır. Tamaşaçılarımız, xüsusən, Qərbi



Azərbaycan İcmasının üzvləri bizimlə olsa, yanımızda olsa, Vətənə dönəcək köç karvanımızın yolu daha rahat, daha işıqlı olacaq! Əziz həmvətənlərimizi, dostlarımızı, Vətən sevdalı insanlarımızı bu yolda bərabər addımlamağa çağırırıq. Tamaşaçılarımız bizi YouTube kanalında axtarsınlar, arzu, istək və təkliflərini bildirsinlər. Hədəfimiz – Qərbi Azərbaycandır, məlumat qaynağımız QA TV-dir.

***Qafqaz TV rəhbəri Eltən Qədimbəyli isə həmkarlarına təbriklərini belə ifadə etdi:***



– Qafqaz TV yaradıcı heyəti Qərbi Azərbaycan Televiziyasının keçdiyi 2 illik yolu böyük rəğbətlə izləyir. Bildiririk ki, bu yolda hər zaman birgə çalışmağa, ortaq layihələr icra etməyə, duyğu və düşüncə birliyi ilə irəliləməyə hazırıq. Əminik ki, bu televiziya yaxın zamanda peyk yayımı ilə yalnız ölkəmizdə deyil, bütün dünyada izlənəcək.

Qərbi Azərbaycanın, eləcə də digər sürgünə məruz qalmış Türk toplumlarının dərdi, haqqı və harayı xarici dillərdə dünya ictimaiyyətinə çatdırılacaq.

Unutmayaq: bu çağda media, sadəcə, xəbər yayımı deyil – bir ulusun varlıq savaşıdır. Bu savaşı aparmaq üçün artıq güclü, təcrübəli və inamlı bir rəhbərlik var. Qərbi Azərbaycanın səsi – artıq bizim hamımızın doğma səsidir və ucalması üçün hər birimiz dəstək göstərməliyik. Qoy Qərbi Azərbaycanın səsi dünyaya yayılsın və tarixi ədalətsizliklə illərdir ki, yurd-yuvalarından uzaq düşmüş milyonlarla soydaşımızın öz ata, baba torpaqlarına dinc qayıtmaq diləkləri də yerinə yetsin.

Telli xanım başda olmaqla həmkarlarımızı təbrik edir, onlara fəaliyyətlərini tezliklə Qərbi Azərbaycan torpaqlarında davam etdirməyi arzu edirik.

***Hazırladı: Tahir AYDINOĞLU***
***XQ***

*Qərbi Azərbaycanın mədəni irsi*

# Tarixi həqiqətlər düşməni tərksilah edir

**50 milyonluq Azərbaycan xalqının tarixən yaşadığı, özünə əzəli Vətən saydığı böyük bir coğrafiya zaman-zaman işğallara məruz qalıb parçalanaraq müxtəlif dövlətlərin tərkibinə qatılmışdır. Tarixi Azərbaycan torpaqlarını 2 yerə bölmüş Risiya işğalından sonra Araz çayınının quzeyində qalmış ərazilərin bir hissəsi də itirilmişdir. İrəvan xanlığının ərazisində, Naxçıvan və Qarabağ xanlıqlarının bir hisəsində Qərb imperializminin və bolşevik Rusiyasının oyuncaq Ermənistan dövləti yaratması isə xalqımız üçün daha faciəli olmuşdur.**




Qərbi Azərbaycanda 1918–1920-ci illərdə mövcud olmuş daşnak hökumətinin yerli türk-müsəlman əhaliyə qarşı törətdiyi kütləvi qırğın və deportasiya siyasəti sovet dövründə azərbaycanlıların davamlı sıxışdırılması, planlı köçürülməsi, nəhayət, SSRİ ittifaq dövlətinin süqutu gedişində zorakı üsullarla qovulması, öldürülməsi ilə tamamlanmışdır. Beləliklə, qədim türk yurdu olmuş qərbi Azərbaycanda soydaşlarımızın mövcudluğuna son qoyulmuşdur.

Bununla kifayətlənməyən Ermənistanın millətçi-hərbi rejimi səlibçi mərkəzlərin və bu siyasəti dəstəkləyən dövlətlərin fəal himayəsi ilə Azərbaycanın Qarabağ və Şərqi Zəngəzur bölgələrini də işğal etmiş, Qərbi Azərbaycandan deportasiya edilmiş 250 min nəfər qaçqına 750 min öz ölkəsində məcburi köçkünə çevrilmiş insan da əlavə olmuşdur. Min bir bəhanə və saxtakarlıqla 30 il davam etmiş riyakar sülh danışıqlarının dalana dirənməsi, Ermənistanın ölkəmizi yeni ərazilərin işğalı ilə hədələməsi və 1920-ci ilin 27 sentyabrında irimiqyaslı hucuma keçməsi, nəhayət, Azərbaycan dövlətinin səbr kasasını daşdırdı.

Xalqımızın beynəlxalq hüquqa əsaslanaraq ərazi bütövlüyünü bərpa etmək üçün müqəddəs Vətən müharibəsinə qalxması 44 günlük Zəfər yürüşü azğın düşmənin quldur. qaniçən birləşmələrinin darmadağın edilərək ölkəmizdən qovulması ilə nəticələndi. Bu tarixi qələbənin səhərisi günündən başlanan irimiqyaslı bərpa proqramları və dirçəliş layihələri Qarabağ və Şərqi Zəngəzur bölgələrinin məcburi köçkünlərinin hissə-hissə öz yurdlarına qayıdışı ilə davam edir.

Ermənistanın təcavüzkarlıq və işğalçılıq siyasətinə son qoyulması, Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini tam bərpa etməsi tarixi torpaqlarımız olan qərbi Azərbaycandan qovulmuş qaçqınların və onların varislərinin dədə-baba yurdlarına dönməsi ilə bağlı heç zaman sönməyən arzu və tələblərin də gerçəkləşməsinə tarixi şərait yaratmışdır.

Bu geosiyasi gerçəklik qərbi Azərbaycan qaçqınlarının əzəli və əbədi yurd yerlərimizə qayıtmaq arzusunu oyatmağa başlamışdır. Niyə də olmayaydı?! Qarabağ Zəfərinin baş sərkərdəsi Prezident İlham Əliyevin Qərbi Azərbaycana Qayıdış təşəbbüslərini dövlət səviyyəsində dəstəkləməsi bu mübarizəyə ümumxalq hərəkatı miqyası və vüsəti vermişdir. Qayıdış hərəkatının Ermənistan dövlətindən və Dünya Birliyindən tələbi budur ki, dəfələrlə öz yerindən-yurdundan zorla qovulmuş soydaşlarımızın öz doğma el-obalarına qayıtmaq hüququ qeyd-şərtsiz tanınsın və mütləq şəkildə təmin edilsin.

Tarixi həqiqət budur ki, İran və Türkiyədən Qərbi Azərbaycana köçürülmüş ermənilər yerli əhalini davamlı olaraq soyqırımlara məruz qoymuş və zorakılıqlarla bu torpaqlardan çıxarmışlar. Məqsəd də Azərbaycan xalqının bu yerlərdən izini silmək, qondarma tarix yaratmaq olmuşdur.

Qərbi Azərbaycana Qayıdış hərəkatına mütəşəkkillik və sistemli yön verən konsepsiyanın da məqsədi bu tarixi gerçəkləri dünyaya göstərmək, qayıdış hüququnu qəti olaraq subuta yetirməkdir. Bu həqiqətləri dünyaya çatdırmağın ən təsirli vasitəsi məhv edilmiş Qərbi Azərbaycan mədəni irsini tarixi faktlar, qorunub saxlanmış maddi və mənəvi nümunələr, xatirələr əsasında bərpa etməkdir. Kitablarda cəmləyərək, müxtəlif dillərə tərcümə edərək dünyaya yaymaqdır.

Azərbaycan türklərinin əzəli Vətəni olan Qərbi Azərbaycanın ermənilərə sonradan verilməsi ilə bağlı təkcə tarixi faktlar deyil, həm də folklor örnəkləri məlumat verir. Bu nümunələri toplayıb yazıya almaq qayıdış hərəkatına mənəvi-hüquqi dəstək qazandırır. Qərbi Azərbaycandan qovulmuş soydaşlarımızla görüşüb onlarla söhbət apararkən bir çox həqiqətlər də ortaya çıxır.

Qərbi Azərbaycandan sonuncu deportasiya zamanı çıxarılmış soydaşlarımız Azərbaycanın bir çox ərazilərində, eləcə də Naxçıvanın rayon və kəndlərində də məskunlaşıblar. Onların yığcam yaşadıqları Parağa, Gömür, Çalxanqala və s. kimi kəndlərdə yaşayanlar öz adət-ənənələrini və gətirdikləri mənəvi irs yadigarlarını qorumağa çalışıblar və demək olar ki, buna nail olublar. Onlar üçün Vətən həsrətindən uca bir duyğu yoxdur. Doğma yurd həsrəti bu insanların ən böyük dərdi, ən ağır yarasıdır.




Qərbi azərbaycanlılarla mütəmadi görüşərək onlarla söhbətlər təşkil edən ziyalılardan biri də filologiya üzrə fəlsəfə doktoru, dosent Aytən Cəfərovadır. O, AMEA Naxçıvan Bölməsinin əməkdaşı olmaqla yanaşı, Qərbi Azərbaycan İcmasının Ordubad rayonu üzrə nümayəndəsi kimi də fəaliyyət göstərir. Alimin keçirdiyi görüşlərin nəticəsi təkcə rəsmi hesabat və sənədlərdə qalmır. Aytən xanım bu görüşlərdən aldığı təəssüratları publisistik, yeri gəldikdə də elmi məqalələrə çevirərək geniş oxucu auditoriyasına təqdim edir. Onun bu mövzuda çap etdirdiyi "Qərbi Azərbaynın etno-mədəni mühiti: tədqiqlər, xatirələr, faktlar" kitabının ikinci hissəsi Qərbi Azərbaycanın tarixi-mədəni irsinin toplanmasına yeni töhfədir.

Folklorşünas Aytən Cəfərova qərbi Azərbaycandan toplanılan ağız ədəbiyyatı örnəkləri üzərində apardığı elmi tədqiqatını sistemləşdirərək ictimaiyyətə kitabda şəklində təqdim edir. Tədqiqatın növbəti hissəsi "Yaddaşlarda qorunan etno-milli tarix" adlanır. Qərbi Azərbaycandan deportasiya olunmuş soydaşlarımızdan toplanılmış folklor örnəkləri "Qərbi Azərbaycanın hikmət xəzinəsindən" adlı bölmədə yer alıb. Materialların bir hissəsi isə "Saz tutub, söz qoşub, Vətən deyərəm" başlığı altında toplanıb. Burada biz qərbi azərbaycanlı saz-söz insanlarının poetik dünyası ilə tanış oluruq. Dərələyəz mahalının istedadlı övladı Bəylər Xanlaroğlunun şeirləri isə yurda sahibliyin bədii ifadəsi təsiri bağışlayır.

Göründüyü kimi, qərbi Azərbaycanla bağlı hər kitab və monoqrafiya, hətta kiçik bir məqalə çox önəmli və dəyərlidir. Çünki bu əsərlər qərbi Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasına ən yaxşı vəsilədir. Dosent Aytən Cəfərovanın "Qərbi Azərbaycanın etno-mədəni mühiti, tədqiqlər, xatirələr və faktlar" tədqiqatının II kitabı da bu baxımdan Qərbi Azərbaycana Qayıdış hərəkatına məlumat–məfkurə dəstəyi qazandırılması çağırışına layiqli cavabdır.



***Mahirə HÜSEYNOVA,***
***filologiya elmləri doktoru, professor***

***Zülfiyyə İSMAYIL,***
***filologiya üzrə fəlsəfə doktoru, dosent***

# Orta Dəhlizdə Azərbaycan–ABŞ əməkdaşlığının hədəfləri



**Rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev "Facebook" sosial şəbəkəsindəki səhifəsində ABŞ-nin ölkəmizdəki müvəqqəti işlər vəkili Emi Karlon ilə görüş keçirdiyini, söhbət zamanı nəqliyyat, Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutunun (Orta Dəhliz) inkişafı və bu istiqamətdə daşımaların perspektivlərini müzakirə etdiyini vurğulayıb. Eyni zamanda telekommunikasiya, kibertəhlükəsizlik, süni intellekt, kadr potensialının artırılması və bu ölkə şirkətləri ilə gələcək əməkdaşlıq məsələləri barədə fikir mübadiləsi apardığını da diqqətə çatdırıb.**

Buradan aydın olur ki, Azərbaycanın müasir inkişaf modeli getdikcə daha çox rəqəmsal texnologiyaların tətbiqi və beynəlxalq əməkdaşlıq üzərində formalaşır. Bu kontekstdə Azərbaycanın – ABŞ xüsusilə diqqət çəkir. Azərbaycandakı müvəqqəti işlər vəkili Emi Karlon ilə keçirilən görüş də mühüm önəm daşıyır. Bu isə iki dövlət arasındakı münasibətlərdə innovasiya və logistika sahələrinin getdikcə dərinləşəcəyindən xəbər verir.

Görüşdə Orta Dəhlizin inkişafı, eləcə də bu istiqamətdə daşımaların perspektivlərinin müzakirə edilməsi də təsadüfi deyil. İlk növbədə xatırladaq ki, bu gün adı çəkilən marşruta haqlı olaraq geosiyasi və iqtisadi əməkdaşlıq platforması kimi yanaşılır. Azərbaycan Orta Dəhliz üzrə əsas tranzit ölkə kimi regional və qlobal yükdaşımalarda strateji mövqe tutur.

Bu dəhliz Çin, Orta Asiya, Xəzər regionu, Qafqaz və Avropanı birləşdirən ən qısa və təhlükəsiz nəqliyyat marşrutudur. Görüşdə bu dəhlizin gələcək inkişaf perspektivlərinin müzakirə olunması ABŞ-ın regionda bu marşrutun önəmini yüksək dəyərləndirdiyini göstərir. Ekspertlər ABŞ şirkətlərinin Orta Dəhlizdə logistika, yükdaşıma və rəqəmsal izləmə sistemləri sahəsində sərmayə və texnologiya ilə iştirak edə biləcəklərini bildirirlər.

Azərbaycan telekommunikasiya sahəsində də sürətli modernləşmə mərhələsindədir. Fiber-optik şəbəkələrin genişləndirilməsi, "ağıllı" şəhər layihələrinin icrası və əhalinin internetə çıxış imkanlarının artırılması bu sahədə prioritet istiqamətlərdən biridir. ABŞ ilə bu sahədə əməkdaşlıq, xüsusilə yüksək texnologiyalı avadanlıqların respublikamıza ixracı, texnoloji bilik mübadiləsi və startapların dəstəklənməsi baxımından əhəmiyyətlidir. ABŞ texnoloji nəhəngləri Azərbaycanın rəqəmsal transformasiya hədəflərinə mühüm töhfə verə bilər.

Burada mühüm bir məqama da toxunmaq istərdik. Belə ki, kibertəhlükəsizlik bu gün milli təhlükəsizlik məsələsinin tərkib hissəsinə çevrilib. İnformasiya sistemlərinin qorunması, dövlət və özəl sektorda dayanıqlı kibermüdafiə infrastrukturunun yaradılması aktual və zəruri sahədir. ABŞ bu istiqamətdə dünya lideri kimi Azərbaycanla birgə layihələr həyata keçirə, texniki təlimlər, təcrübə proqramları təşkil edə bilər. Bu əməkdaşlıq regional informasiya təhlükəsizliyinin də güclənməsinə töhfəsini şərtləndirir.

Görüş zamanı süni intellekt texnologiyaları üzrə fikir mübadiləsinin aparılması Azərbaycanda bu sahəyə verilən önəmi təsdiqləyir. Rəqəmsal inkişafın əsas istiqamətlərindən olan süni intellekt həm iqtisadiyyatın optimallaşdırılması, həm də xidmət sahələrinin yenilənməsi üçün mühüm vasitədir. ABŞ universitetləri və texnoloji şirkətləri ilə birgə tədqiqatlar, innovasiya mərkəzlərinin yaradılması və mühüm önəm daşıyan məhsulların lokal bazara inteqrasiyası əməkdaşlıq üçün real imkanlardır.

Nazir Rəşad Nəbiyev görüş zamanı kadr potensialının gücləndirilməsi məsələsinə də xüsusi diqqət çəkib. Bu, Azərbaycanın rəqəmsal cəmiyyət quruculuğunda dayanıqlı inkişaf modelinə sadiqliyini göstərir. ABŞ ilə birgə təhsil proqramları, texnoloji təcrübə mübadilələri, distant təlimlər və təqaüd proqramları Azərbaycan gəncləri üçün yeni imkanlar yarada bilər. Bu istiqamətdə əməkdaşlıq ölkəmizin beynəlxalq rəqabətə davamlı texnologiya mütəxəssislərinin hazırlanmasına şəraiti şərtləndirir.

Azərbaycan ilə ABŞ arasında rəqəmsal inkişaf və nəqliyyat sahəsində əməkdaşlıq strateji xarakter daşıyır. Bu əməkdaşlıq yalnız texniki sahələrlə məhdudlaşmır, eyni zamanda, regional sabitlik və iqtisadi artımın təminatına xidmət edir. ABŞ-nin qabaqcıl texnologiyaları və Azərbaycanın geosiyasi üstünlükləri sintez olunaraq, Cənubi Qafqazda innovasiya əsaslı yeni iqtisadi modelin əsasını qoya bilər.

Rəqəmsal diplomatiya və texnoloji tərəfdaşlıq platformasında Azərbaycan – ABŞ münasibətləri yeni mərhələyə qədəm qoyur. Bu, həm ölkəmizin milli maraqlarının təmininə, həm də regionun inkişafına mühüm töhfə verəcək bir əməkdaşlıq xəttidir.

# Azərbaycan–Moldova aqrar tərəfdaşlığı



**İyulun 30-da Moldova Respublikasının Azərbaycandakı səfiri Aleksandr Esaulenko, Azərbaycan Üzümçülük və Şərabçılıq İnstitutunun direktoru Vuqar Səlimovun dəvəti ilə İnstitutun Şamaxı rayonunun Mədrəsə kəndində yerləşən eksperimental laboratoriyasını ziyarət edib. Burada Moldova Respublikasının yerli üzüm sortlarının əkilməsi mərasimi baş tutub.**

Tədbir çərçivəsində Moldova və Viorica da daxil olmaqla, Floricica, Feteasca Neagra, Legenda, Plavaie və digər 9 üzüm sortunun tingləri 1 hektar ərazidə əkilib. Bu təşəbbüs Azərbaycan və Moldova arasında ixtisaslaşmış institutlar səviyyəsində elmi-texniki əməkdaşlığın dərinləşdirilməsinə yönəlib.

Moldova sortları məhsuldarlığı və aqrotexniki keyfiyyətləri ilə seçilir. Məlumatlara görə, bu sortlar Azərbaycan şəraitində 1 hektardan 35–40 tonadək məhsul vermək imkanına malikdir. Həmçinin şaxtaya və rütubətə davamlılıq, daşınma və saxlanma qabiliyyəti onların təzə istehlakla yanaşı, şərabçılıq və ixrac üçün də perspektivli olduğunu göstərir.

Bu cür birgə layihələr Azərbaycan və Moldova arasında kənd təsərrüfatı sahəsində tərəfdaşlığın inkişafına real töhfələr verir.

***XQ***

# Asiyadan Avropaya dəmir körpü

## *BTQ polad magistralının Gürcüstan – Türkiyə hissəsi də istismara hazırdır*

**Gürcüstanın İqtisadiyyat və Davamlı İnkişaf Nazirliyinin mediada yayılan məlumatına əsasən, gürcüstanlı nazir Mariam Kvirivişvili ilə Türkiyənin nəqliyyat və infrastruktur naziri Abdulkadir Uraloğlu arasında keçirilən görüşdə Bakı-Tbilisi-Qars (BTQ) dəmir yolunun tam istismara hazır olduğu bildirilib. Tbilisidə reallaşan görüşdə, eyni zamanda, nəqliyyat infrastrukturunun inkişafı və regionun tranzit mərkəzi kimi rolu müzakirə olunub. Söhbət zamanı iqtisadi artımın və regional inteqrasiyanın gücləndirilməsi üçün nəqliyyat dəhlizlərinin, o cümlədən BTQ dəmir yolunun səmərəli istifadəsinin vacibliyi vurğulanıb, ikitərəfli ticari-iqtisadi əməkdaşlığın prioritet istiqamətləri qeyd edilib. Görüşdə adları çəkilən ölkələrdə dəmir yollarının müasirləşdirilməsi, Şərq-Qərb avtomobil yolunun inşası, Tbilisidə yeni beynəlxalq hava limanının tikintisi məsələləri də daxil olmaqla, böyük infrastruktur layihələrinin həyata keçirilməsinin gedişatına da nəzər salınıb.**

Qeyd edək ki, Bakı-Tbilisi-Qars dəmir yolu 2017-ci ildə istismara verilib və Çin ilə Avropa arasında daha qısa və sürətli nəqliyyat bağlantısı yaratmaq məqsədi daşıyır. Bu marşrut Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu (TBNM) çərçivəsində mühüm bir halqadır. Göründüyü kimi, Azərbaycanın təşəbbüsü və iştirakı ilə reallaşdırılan BTQ dəmir yolu layihəsi bu gün regionda nəqliyyat və logistika baxımından mühüm strateji layihələrdən biri kimi səmərəli fəaliyyət göstərir. Cənubi Qafqaz regionunu Avropa ilə Asiya arasında birləşdirən bu mühüm xətt təkcə 3 ölkəni deyil, həm də daha geniş bir coğrafiyada dövlətlərarası əməkdaşlığın güclənməsinə xidmət edir.

Xatırladaq ki, BTQ dəmir yolu marşrutu öz başlanğıcını Azərbaycanın Bakı şəhərindən götürərək Gürcüstanın Tbilisi şəhərinə, oradan isə Türkiyənin Qars bölgəsinə qədər uzanır. Bu marşrut təkcə yük daşımaları üçün deyil, həm də sərnişin daşımalarının inkişafı baxımından əhəmiyyətli bir infrastruktur layihəsidir. Çin ilə Avropa arasında daha qısa, sürətli və etibarlı bağlantı yaratmaq məqsədi daşıyan BTQ marşrutu, eləcə də TBNM çərçivəsində də önəmli bir halqa rolunu oynayır.

BTQ dəmir yolu Çin tərəfindən irəli sürülən və qlobal miqyasda həyata keçirilən "Bir kəmər, bir yol" təşəbbüsünün reallaşmasında mühüm rol oynayır. Bu dəmir yolu vasitəsilə Çindən Avropaya uzanan yüklərin dəniz yolu ilə müqayisədə daha az vaxt sərf etməklə çatdırılması mümkündür. Əgər ənənəvi dəniz yolu ilə Çin məhsulları Avropaya 35-45 günə çatırsa, hazırda BTQ üzərindən bu müddət 12-15 günə qədər qısalır. Bu isə nəinki logistika xərclərinin azalmasına, həm də ticarət dövriyyəsinin sürətlənməsinə xidmət edir.

Layihə təkcə Azərbaycan, Gürcüstan və Türkiyənin iştirakı ilə reallaşsa da, əhatə dairəsi baxımından çox daha geniş bir regionu əhatə edir. Orta Asiya ölkələrinin – Qazaxıstan, Türkmənistan, Özbəkistan və Çinin BTQ vasitəsilə Avropaya birbaşa çıxışı gerçəkləşir. Bu isə Azərbaycanın geostrateji əhəmiyyətini artırır və ölkəni mühüm bir tranzit mərkəzinə çevirir.



BTQ-nin reallaşması Azərbaycanın nəqliyyat sahəsindəki konseptual baxışlarının nəticəsidir. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən bu təşəbbüs Azərbaycanın nəqliyyat siyasətinin strateji və kompleks yanaşma üzərində qurulduğunu bir daha nümayiş etdirir. Dəmir yolunun fəaliyyəti göstərir ki, Azərbaycan artıq nəqliyyat kəsişməsində yalnız iştirakçı yox, həm də təşəbbüskar və istiqamətverici bir ölkədir.

Onu da qeyd edək ki, BTQ TBNM-nin əsas halqalarından biridir. Bu marşrut Çin-Qazaxıstan sərhədindən başlayaraq Xəzər dənizi üzərindən Azərbaycana, oradan Gürcüstan və Türkiyə vasitəsilə Avropaya uzanır. Azərbaycan TBNM-də əsas tranzit ölkə olmaqla yanaşı, həm də Xəzər dənizi üzərində multimodal daşımaların təşkili üçün zəruri liman və logistika infrastrukturuna malikdir. Bakı Beynəlxalq Dəniz Ticarət Limanı, Ələt Azad İqtisadi Zonası və dəmir yolu bağlantıları ilə BTQ marşrutu TBNM-in səmərəliyini daha da artırır.

Ümumiyyətlə, BTQ dəmir yolunun fəaliyyəti Azərbaycanın regional və beynəlxalq statusuna mühüm töhfə verir. Bu dəhliz vasitəsilə ölkəmiz:

– tranzitdən gəlir əldə edir;

– yerli logistika sektorunun inkişafını stimullaşdırır;

– beynəlxalq bazarlara daha rahat çıxış imkanları qazanır;

– siyasi baxımdan regionda əməkdaşlıq və sabitliyə töhfə verir.

Bütün bunlarla yanaşı, BTQ xətti Zəngəzur dəhlizinin reallaşması ilə paralel şəkildə regionda nəqliyyat strukturunun daha da möhkəmlənməsinə yol açacaq. Naxçıvanın Azərbaycanın əsas ərazisi ilə nəqliyyat birləşməsi, eləcə də bu bağlantının Türkiyəyə inteqrasiya olunması BTQ-nin gələcək rolunu daha da genişləndirəcək.

Hazırda BTQ dəmir yolu layihəsinin gücləndirilməsi və yükötürmə qabiliyyətinin artırılması istiqamətində işlər davam etdirilir. Xüsusilə Gürcüstan ərazisində infrastrukturun genişləndirilməsi, yeni stansiyaların tikintisi və ötürmə gücünün 5 milyon ton yükə çatdırılması planlaşdırılır. Bu prosesin reallaşması isə layihənin daha geniş bir ticarət həcmini əhatə etməsinə imkan verir.

BTQ dəmir yolu sadəcə bir nəqliyyat marşrutu deyil, bu, Azərbaycanın regional əməkdaşlıq fəlsəfəsinin, strateji baxışının və milli maraqlarını regional inteqrasiya ilə uzlaşdırma bacarığının bariz nümunəsidir. Bu dəhliz vasitəsilə Azərbaycan həm iqtisadi, həm də siyasi baxımdan regionun lider ölkələrindən biri kimi öz mövqeyini daha da möhkəmləndirir.

# Xəzərin "Ümid-Babək" yatağında kəşfiyyata başlanacaq

**Ümid-Babək əməliyyat şirkətinin yaydığı məlumata görə, qurum bu ilin sentyabrında Xəzərin Azərbaycan sektorunda yerləşən "Ümid-Babək" blokunun "Ümid" yatağında layihə dərinliyi, təxminən, 7 min metr olan qiymətləndirmə quyusunun qazılmasına başlamağı planlaşdırır. Qazma işlərinin 2025-ci ilin iyununda Azərbaycana gətirilən "Neptun" üzən qazma qurğusu vasitəsilə həyata keçiriləcəyi nəzərdə tutulur.**



"Fitch Ratings" beynəlxalq reytinq agentliyinin hesabatına əsasən, "Ümid" yatağının işlənməsinin ikinci mərhələsi çərçivəsində hasilata isə 2027-ci ilə qədər başlanılması gözlənilir. Bu il aprelin 1-nə olan rəsmi məlumatda isə "Ümid" yatağının işlənməsinin birinci mərhələsi çərçivəsində, ümumilikdə, 11,2 milyard kubmetr qaz və 1,65 milyon ton qaz kondensatı hasil edildiyi bildirilir. Azərbaycan Dövlət Neft Şirkətinin ilkin qiymətləndirməsinə görə, "Ümid" yatağının Balaxanı VIII, Fasilə (B, C, D), Fasilə E, Qırməkiüstü və Qırməkialtı layları üzrə ehtiyatları 129 milyard kubmetr qaz və 20 milyon ton kondensatdan ibarətdir.

Xatırladaq ki, 2010-cu il noyabrın 24-də kəşf edilən "Ümid" respublikamızın müstəqillik dövründə Dövlət Neft Şirkətinin tərəfindən kəşf edilən ilk qaz-kondensat yatağı olaraq qeydə alınıb. 2012-ci ildən istismara başlanılıb. Perspektivli struktur kimi isə 1953-cü ildə Azərbaycan geoloqları tərəfindən aparılan kəşfiyyat işləri zamanı müəyyənləşdirilib. Xəzər dənizi akvatoriyasında, Bakı şəhərindən 75 kilometr cənubda yerləşən "Ümid" yatağının sahəsi 45 kvadratkilometr, strukturun ərazisində dənizin dərinliyi isə 40-60 metrdir.

# Bu il fermerlərə 4,4 milyon manat sığorta ödənilib

**Bu ilin yanvar – iyun ayları ərzində müxtəlif səbəbdən zərərlə üzləşən fermerlərə 4 milyon 435 min manat (2024-cü ilin eyni dövrü ilə müqayisədə 1 milyon 571 min manat və ya 55 faiz çox) sığorta ödənişi edilib. Bu barədə XQ-yə Aqrar Sığorta Fondundan məlumat verilib.**




Bildirilib ki, hesabat dövründə sığorta ödənişinin 4 milyon 245 min manatı bitkiçilik məhsulları üzrə (əkin sahələrinə), 190 min manatı isə heyvandarlıq təsərrüfatlarına edilib.

Sığorta ödənişlərinin verilməsi ilə nəticələnən əsas sığorta hadisələri bitkiçilik üzrə ən çox fırtına, dolu, şaxtavurma və subasma hadisələri üzrə həyata keçirilib. Heyvandarlıq sığortasında isə ödənişlərin böyük hissəsi yoluxucu xəstəliklər və ot-yemdən zəhərlənmə hallarına aid olub.

*Səhifəni hazırladılar:*
***Vaqif BAYRAMOV,***
***Mirbağır YAQUBZADƏ***
***XQ***

*İzimiz, tariximiz...*

# Atası Baburi hökmdarı, anası Səfəvi şahzadəsi olan Məhəmməd Əzəm şah

**(VII YAZI)**

Böyük Moğol (Baburilər) İmperiyasının VI hökmdarı Övrəngzib (Aləmgir) üçüncü oğlu Məhəmməd Əzəmi çox sevirdi, oğlu böyüdükcə ağıllı fikirlər söyləməsi, müdrikliyi, mükəmməlliyi və cəngavərliyi ilə seçilirdi. Bu da təbii ki, atası Övrəngzibin xoşuna gəlirdi, oğlunun nəcib xasiyyətləri mənimsəməsi, əxlaqı onu hədsiz dərəcədə sevindirir, Şahzadə Məhəmməd Əzəmi həm də yaxın dostu hesab edir, bəzi məsələlərdə onunla məsləhətləşir, mühakiməsinə heyran olurdu. Elə bunun nəticəsi idi ki, Şahzadə Məhəmməd Əzəm hələ 1681-ci il avqustun 12-də atası Övrəngzib tərəfindən vəliəhd elan edilmişdi.

Bu, Şahzadə Məhəmməd Əzəmin ögey qardaşları Məhəmməd Müəzzəm (Şah Aləm) və Məhəmməd Kam Baxşın xoşuna gəlmirdi və zaman-zaman bu təyinata mane olmaq istəyirdilər, oldular da... Bu oğlanlar Övrəngzibin əhəmiyyətsiz hesab etdiyi indus arvadından olan övladları idi.

Qütbəddin Məhəmməd Əzəm Şah, Böyük Moğol (Baburilər) İmperiyasının VII hökmdarı, İmperiyanın VI hökmdarı Övrəngzibin və birinci və əsas arvadı, Sultan Şahcahanın və Mümtaz Mahalın gəlini, Səfəvi şahzadəsi Diras Banu Bəyimin oğlu idi.

Diras Banu Bəyim I Şah İsmayılın kiçik oğlu, görkəmli sərkərdə Bəhram Mirzə Səfəvinin oğlu Bədiüzzaman Mirzə Səfəvinin qızı idi.

Şahzadə Məhəmməd Əzəm 1653-cü il iyunun 28-də Burhanpurda doğulub. Onun dörd yaşı olanda Diras Banu Bəyim qızını dünyaya gətirərkən bədəninə infeksiya düşməsi səbəbindən vəfat edib.



**Məhəmməd Əzəm şah**

Bəs Diras Banu Bəyimin atası Bədiüzzaman Mirzə Səfəvi kim idi? O, Moğol sarayında tanınan şəxslərdən biri olub, Şahnəvaz xan adı ilə tanınıb. Bədiüzzaman Mirzə Səfəvinin İbrahim Mirzə və Sultan Hüseyn Mirzə adlı iki qardaşı olub. Onların ataları Bəhram Mirzə Səfəvi 1549-cu ildə vəfat etdikdən sonra Bəhram Mirzənin qardaşı və Səfəvi şahı I Təhmasib qardaşının övladlarını öz himayəsinə götürüb, hətta I Təhmasib Bədiüzzaman Mirzəni öz oğlu elan edib. 1557-ci ildə Bədiüzzaman Mirzə Səfəvi Sistanın hakimi təyin olunub və Təhmasibin qızı Pərixan xanım ilə evlənib.

## Atası Şahzadə Məhəmməd Əzəmi müharibəyə göndərir

Övrəngzib hələ yeniyetmə vaxtlarından Məhəmməd Əzəmi bərkə-boşa çəkir, gələcəkdə onu vəliəhd elan edəcəyini düşündüyündən əslində Məhəmməd Əzəmə hökmdarlığın, necə deyərlər, sirlərini öyrədir, vəliəhddə ədalətli şah obrazını formalaşdırırdı. Şahzadə Məhəmməd Əzəm də atasının məsləhətlərini bircə-bircə götürürdü. Odur ki, Övrəngzib oğlunu müharibədə də yoxlamaq qərarına gəlir və 1685-ci ildə Məhəmməd Əzəmi 50 minlik qoşunla Bicapur Sultanlığını ələ keçirməyə göndərir. Moğol ordusunun elit bölmələrinə Dilir xan, Qasım xan və Ruhullah xan komandanlıq edib.

Bicapur qalası isə İsgəndər Adilşah və onun sərkərdəsi Sarza xan tərəfindən qorunub. Moğollar bir neçə gün davam edən döyüşdə əks tərəfdəki məşhur Məlik-i Meydan topunun sayəsində Bicapur qalasını ala bilmirlər. Məlik-i Meydan topunun bir mərmisinin diametri 69 sm olub. Moğollar bu qanlı döyüşdə 500 adam itirib.

Moğollar Bicapur qalasının ətrafında qazılan 10 fut dərinlikdəki xəndəkdən də keçə bilmir, həm də 50 fut hündürlüyü, 25 fut eni olan incə qranit və əhəng məhlulu divarları aşmaq demək olar ki, mümkün deyildi.

Uduzduğu xəbərini alan Övrəngzib digər oğlu Şah Aləmi və məşhur sərkərdə Abdullah xan Bahadur Firuz Cəngi və Qaziddin xan Firuz Cunqu Bicapura göndərir. Sonra isə Övrəngzib özü təxminən 100 min nəfərlik ordu ilə oraya gedir və 8 gün davam edən hücumlardan sonra qalanın 5 qapısı zədələnir və istehkam divarlarının əhəmiyyətli bir hissəsini yıxılır və Moğollar qalanı işğal edir.



**Xuldabadda Əzəm şah və arvadının məzarları.**

Amansız döyüşdə İsgəndər Adilşah ağır yaralanır və aldığı yaralardan 1686-cı il sentyabrın 12-də vəfat edir. İsgəndər Adilşahın ölümü Adilşahilər sülaləsinin süqutuna səbəb olur. Sultan Övrəngzib öz yaxın adamı olan Seyid Miyanı Bicapura ilk hakim təyin edir.

## Məhəmməd Əzəm imperiyanın VII hökmdarı olur

Övrəngzib 1707-ci il martın 3-də 88 yaşında vəfat etdikdən sonra Məhəmməd Əzəm Şah 1707-ci il martın 14-də Əhmədnaqarda Baburilər İmperiyasının taxtına oturub.

Şahzadə Məhəmməd Əzəm Moğol taxtına oturmazdan əvvəl 1678-ci ildən 1706-ci ilə qədər Berarın, Malvanın və Benqalın, Qucaratın və Dekanın hakimi olub.

Övrəngzib vəfat edən zaman digər övladları Kam Baxş Qucaratın, Məhəmməd Müəzzəm Kabilin hakimi idi. Kam Baxş atası ölən kimi öz adına sikkə zərb etdirsə də, Məhəmməd Əzəm atası tərəfindən varis elan edilmişdi və qanuni olaraq özünü hökmdar elan edir.

Məhəmməd Əzəm taxta çıxdıqdan sonra ögey qardaşları başda olmaqla bir neçə sülalə üzvləri tərəfindən qəbul edilməyib. Əsas mübarizə də Məhəmməd Əzəmlə böyük ögey qardaşı Məhəmməd Müəzzəm arasında gedib.

Odur ki, Məhəmməd Müəzzəm və Kam Baxş Məhəmməd Əzəm Şahı aradan götürmək üçün yollar axtarırlar. Belə bir fürsət onların əlinə düşür və 1707-ci il iyunun 7-də Cacau döyüşündə Şahzadə Məhəmməd Muəzzəm Əzəm Şahı və onun üç oğlu-Bidar Bəxti, Cavan Baxt və İskəndər Şanı məğlub edir və qısa müddətdə onlar öldürülür.

## Məhəmməd Müəzzəm I Bahadır şah adı ilə taxta çıxıb

1707-ci il iyunun 20-dən 1712-ci il fevralın 27-dək şahlıq edib.

Bahadur şahın dövründə yerli hökmdarlar və əfqanlar mərkəzi hakimiyyətə qarşı çıxırlar. Əfqanlar şəhərlərə hücuma keçir, əhalinin var-yoxunu qarət edirdilər. Yaranan gərgin vəziyyətdən istifadə edən ingilislər və hollandlar gərginliyin daha da artırılmasına çalışırdılar.

Daxili çəkişmələr və üsyanlara dözə bilməyən Bahadur şah 1712-ci il fevralın 27-də 68 yaşında vəfat edib.

*

Əzəm şah ata tərəfdən Teymurilər soyunun, ana tərəfdən isə o dövrdə dünyanın məşhur sülalələrindən olan Səfəvilərin qanına sahib olması ilə fəxr edirdi. Kiçik qardaşı Şahzadə Məhəmməd Əkbərin vəfatından sonra o, atasının əsilzadə qanını daşıyan yeganə oğlu idi.

Venesiya yazıçı və səyyahı, Baburilər İmperiyası haqqında materiallar yazan Nikkolao Manucciyə görə, Məhəmməd Əzəm Səfəvi şahlıq qanına və Baburi əcdadlarına sahib olması ilə çox fəxr edirmiş. Onun ürəyində ana babası Bədiüzzaman Mirzə Səfəvi (Şahnəvaz xan) Səfəvinin də xüsusi yeri vardı.

Şahzadə Məhəmməd Əzəm birinci dəfə 1668-ci il mayın 13-də Ahom kralı Svargadeo Cayadhvayın qızı, Şahzadə Ramani Qabharu ilə evlənib və xanımın adı türkləşdirilərək Rəhmət Banu Bəyim qoyulub. Bu, siyasi evlilik idi və nikah diplomatiyasına əsaslanırdı.

1669-cu il yanvarın 3-də Əzəm əmisi Dara Şükuhun qızı Cahanzeb Banu Bəyimlə ailə qurur. Cahanzeb qısa vaxtda Məhəmməd Əzəmin əsas arvadı statusu qazanır. Onların ilk oğlanları 1670-ci il avqustun 4-də doğulub və babası Övrəngzib uşağa Bidar Bəxt adı qoyub. Cahanzeb qılıqlı qadın olduğundan qayınatasının da sevimli gəlini idi. Övrəngzib Məhəmməd Əzəmi və nəvəsi Bidar Bəxti daha çox sevirmiş. Bidar Bəxt böyüdükdən sonra özünü uğurlu və cəsur sərkərdə kimi sübut edib.

Şahzadə Məhəmməd Əzəmin üçüncü evliliyi də nikah diplomatiyasına əsaslanıb. 1681-ci ildə Məhəmməd Əzəm Adilşahilər sülaləsindən olan II Əli Adilşahın qızı Şəhər Banu Bəyim və ya Padşah Bəyimlə evlənib. 1705-ci ildə ikinci arvadı Cahanzebin vəfat etməsi Əzəmə pis təsir edib, ölümünə qədər onu yaddan çıxarmayıb.

Əzəm şahın daha bir evliliyi də nikah diplomatiyasına əsaslanıb. Bu dəfə atası Övrəngzibin dayısı Şaysta xanın qızı Pəri Bibi və ya Duxt Rəhmət Banu ilə evlənib. Bu evlilik Pəri Bibinin 1678-ci ildə qəflətən Dhakada vəfat etdiyinə görə baş tutmayıb. Əzəm şah Pəri Bibinin xatirəsi üçün Dhakada Övrəngabadda (indiki Lalbağ Fort) məqbərə ucaltdırıb.

Məhəmməd Əzəmin üç doğma bacısı olub: Şahzadə Zebun Nisə, Zinatun Nisə, Zubdatun Nisə və kiçik qardaşı Məhəmməd Əkbər.

Məhəmməd Əzəm şahın on övladl olub:



**Əzəm şah və oğlu Bidar Bəxt**

Sultan Məhəmməd Bidar Bəxt (16 avqust 1670-19 iyul 1707), Atası Əzəm şahla birlikdə qətlə yetirilib.

Şahzadə Vala Cah Bahadur (5 avqust1683-8 iyun 1707), atası ilə birgə öldürülüb.

Şahzadə Cavan Bəxt Bahadur (1671-1707)

Şahzadə İsgəndər Şan Bahadur (1 avqust 1675-13 aprel1677)

Şahzadə Zih Cah Bahadur (1684-1707)

Şahzadə Vala Şan Bahadur (3 avqust 1684-1707)

Şahzadə Məhəmməd Əli Mirzə (169- 28 may 1734)

Şahzadə Gitti Ara Bəyim (1685—1724)

Şahzadə İffət Ara Bəyim Sahibə

Şahzadə Nəcibun Nisə Bəyim Sahibə

Məhəmməd Əzəm Şah qısa müddət, 1707-ci il martın 14-dən 1707-ci il iyunun 20-dək hakimiyyətdə olub, cəmi 67 gün şahlıq edib. Qardaşları tərəfindən öldürülən zaman Məhəmməd Əzəm şahın 53 yaşı olub.

Məhəmməd Əzəm şah ikinci arvadı Cahanzebin yanında məşhur Sufi dərvişi və şeyxi olan Şeyx Zaynuddin Şirazinin dərgahında dəfn edilib. Bu dərgah Övrəngabad yaxınlığındakı Xuldabad məntəqəsində, Övrəngzibin məqbərəsinin qərbindədir.

***Qulu KƏNGƏRLİ,***
***XQ-nin Türküstan üzrə xüsusi müxbiri***
**Daşkənd**

*Fəlakətin addım səsləri*

# Xəzər Rusiya ərazisində daha sürətlə dayazlaşır

## *Dənizi 85 faiz qidalandıran Volqa çayından tökülən su getdikcə azaldılır*

**Xəzər dənizinin səviyyəsi müşahidə tarixində ən aşağı həddə çatıb. Bu barədə Ümumrusiya Elmi-Tədqiqat Balıqçılıq və Okeanoqrafiya İnstitutunun Volqa-Xəzər bölməsi məlumat yayıb. Mütəxəssislərin bildirdiyinə görə, səviyyənin azalması xüsusilə dənizin şimal hissəsində, Rusiya və Qazaxıstan sahil akvatoriyalarında müşahidə olunur.**






Araşdırmalara əsasən, Xəzərin səviyyəsindəki enmə prosesi 1990-cı illərin ortalarından başlayaraq davam edir. Təkcə 2020-ci ildən bu yana səviyyə təxminən 0,8 metr azalıb. Hazırda dəniz səviyyəsi -29,21 metrə düşüb ki, bu da tarixi minimum göstərici hesab olunur. Fəlakətli vəziyyətin əsas səbəblərindən biri Xəzərin əsas su mənbəyi olan Volqa çayının illik axınının zəifləməsidir. Volqa çayı hazırda Xəzər hövzəsinə daxil olan suyun 80-85 faizini təmin edir. Lakin çayın su həcmi tədricən azalır və bu tendensiya davam edir.

XX əsrin ortalarından başlayaraq Volqa üzərində ardıcıl şəkildə bir neçə böyük su elektrik stansiyası və anbarlar inşa olunub. Bu hidroqovşaqlar arasında İvanovski, Uqlitski, Rıbinski, Kuybışev, Saratov, Voljski və digərləri çayın təbii axın rejimini dəyişərək onun Xəzərə çatmasını çətinləşdirib. Çayın hər kubmetr suyu yuxarı axından aşağıya qədər bir neçə dəfə müxtəlif turbinlərdən keçir. Bu proses texniki baxımdan səmərəli sayılsa da, Xəzərə axan suyun miqdarını nəzərəçarpacaq dərəcədə azaldır.

Eyni zamanda, bu anbarların geniş səth sahələri güclü buxarlanma ilə müşayiət olunur. Hər il bu səbəbdən böyük miqdarda su itir. Buxarlanma prosesi iqlim dəyişikliyi fonunda daha da intensivləşib. Son illər bölgədə havanın orta temperaturu artıb, yay aylarında +30°C-dən yuxarı temperatur artıq adi hal alıb. 2024-cü ildə Qazaxıstan sahillərində +43,5°C temperatur qeydə alınıb ki, bu da buxarlanmanı əhəmiyyətli dərəcədə gücləndirib.

Hidroloqların hesablamalarına görə, Xəzər dənizi ildə, təxminən, 50 kub kilometr su itirir. Bu, olduqca böyük bir həcmdir və dəniz səviyyəsinin enməsinə birbaşa təsir göstərir. Rıbinsk kimi bəzi su anbarlarında buxarlanma səviyyəsi ümumi su həcminin 50 faizinə qədər çatır. Buxar isə atmosferə qalxaraq digər coğrafi ərazilərə yağış şəklində düşür və nə Volqaya, nə də Xəzərə geri qayıtmır. Beləliklə, çay üzərində tikilmiş hidrotexniki qurğular bir tərəfdən axını ləngidir, digər tərəfdən isə buxarlanmanı artıraraq Xəzərə axan suyun miqdarını azaldır.

Bölgədə daha tez-tez baş verən quraqlıq dövrləri də Volqa hövzəsində su ehtiyatlarının azalmasına təsir göstərir. Yağıntıların azalması, torpağın quruması və yeraltı suların səviyyəsinin aşağı düşməsi Volqanın ümumi su balansını zəiflədir. Bu da nə çayın, nə də dənizin əvvəlki su bolluğunu qoruyub saxlaya bilməməsi ilə nəticələnir.

Bununla yanaşı, antropogen təsirlər də vəziyyəti daha da ağırlaşdırır. Volqa sahillərində 60 milyona yaxın insan yaşayır və Rusiya sənayesinin və kənd təsərrüfatı istehsalının təxminən yarısı bu hövzədə yerləşir. Nəticədə çayın suyundan əhalinin su təchizatı, kənd təsərrüfatı və sənaye məqsədləri üçün geniş istifadə edilir. Təkcə son 10 ildə Həştərxan vilayətində suvarılan əkin sahələrinin 25 faiz artması Volqadan daha çox su götürülməsi deməkdir. Oxşar artım tendensiyası çayın sahilində yerləşən digər vilayətlərdə də müşahidə olunur. Suvarma sistemləri və sənaye müəssisələri Volqadan milyonlarla kubmetr su çəkir. Onun yalnız kiçik bir hissəsi təkrar istifadə olunur, qalan su isə ya buxarlanır, ya da çirklənmiş şəkildə yenidən çaya və oradan da Xəzərə axıdılır.

Bütün bu faktorlar birlikdə Xəzər dənizinin səviyyəsinin davamlı şəkildə aşağı düşməsinə səbəb olur. Mütəxəssislər hesab edirlər ki, bu azalma hələ uzun illər davam edəcək və səviyyənin əlavə 1,5 metr aşağı düşməsi ehtimal olunur. Bu isə təkcə ekoloji deyil, həm də iqtisadi və sosial baxımdan ciddi nəticələr doğura bilər. Sahilyanı ərazilərdə yaşayan əhali, limanlar, balıqçılıq təsərrüfatları və bütövlükdə Xəzər regionunun iqtisadi infrastrukturu bu dəyişikliklərdən mənfi təsir görə bilər.

Xəzər dənizi son onilliklərdə təkcə səviyyəsinin enməsi ilə deyil, eyni zamanda sürətlə artan çirklənməsi ilə də ekoloji fəlakət təhlükəsi ilə üz-üzədir. Volqa çayı boyunca yerləşən Moskva, Nijni Novqorod, Kazan, Saratov, Volqoqrad və digər şəhərlər illərdir çaya müxtəlif tərkibli sənaye və məişət tullantı suları axıdır. Bu suların tərkibində civə, qurğuşun, kadmium kimi ağır metallar, neft məhsulları, fosfatlar, nitratlar və çirkab sular mövcuddur. Çox zaman bu tullantılar tam təmizlənmədən və normativlərə uyğunlaşdırılmadan birbaşa Volqaya ötürülür. Nəticədə çirklənmiş su kütləsi min kilometrlərlə yol qət edərək Xəzər dənizinə çatır və burada onsuz da həssas olan ekosistemi daha da zəiflədir.

Eyni şəkildə, Terek və Samur çayları da çirklənmə baxımından təhlükəli mənbə sayılır. Beləliklə, Xəzər dənizi həm su itkisi, həm də çirklənmə ilə ekoloji və iqtisadi baxımdan son dərəcə həssas bir mərhələyə qədəm qoyub.

Dayazlaşma və çirklənmənin birgə təsiri isə Xəzər regionunu ekoloji baxımdan sabit və davamlı inkişaf mühitindən sürətlə uzaqlaşdırır. Dəniz suyunun səviyyəsinin enməsi səbəbindən sahil xətti geri çəkilir, yeni bataqlıqlar və duzlu səhralar əmələ gəlir. Eyni zamanda, ağır metallar və toksik maddələr su orqanizmlərində yığılaraq zəncirvari şəkildə insan sağlamlığını da təhdid edir.

Belə bir vəziyyətdə regional səviyyədə koordinasiya olunmuş ekoloji siyasət vacibdir. Bu vəziyyətdən çıxış yolu kompleks və çoxtərəfli yanaşma tələb edir. İlk növbədə, Xəzərin səviyyəsinin sabit saxlanılması üçün Volqa çayında minimal ekoloji su axınının təmin olunması hüquqi müstəvidə tənzimlənməlidir. Bu isə yalnız Rusiyanın razılığı və öhdəlik götürməsi ilə mümkündür. Lakin reallıq ondan ibarətdir ki, Rusiya Volqanı özünün daxili su hövzəsi kimi qəbul edir və onun istifadəsinə dair xarici müdaxilələri suverenliyinə təhdid kimi qiymətləndirir. Bu isə təkcə Azərbaycanın deyil, digər Xəzəryanı ölkələrin də bu sahədə təşəbbüslərini çətinləşdirir.

Buna görə də, yalnız 5 Xəzəryanı dövlətdən – Azərbaycan, Qazaxıstan, Türkmənistan, İran və Rusiyadan ibarət regional diplomatik əməkdaşlıq və kollektiv təzyiq vasitəsilə Volqa çayının idarə olunmasına dair yeni mexanizmlərin yaradılması mümkündür. Bu mexanizmlərdə ekoloji maraqlar ilə iqtisadi tələblər arasında balansın qorunması əsas prinsip kimi qəbul edilməlidir.

Əks təqdirdə, yaxın onilliklərdə Xəzər dənizi daha da dayazlaşacaq, bu isə regionun təbii landşaftında və iqtisadi potensialında ciddi dəyişikliklərə səbəb olacaq. Bu gedişat yalnız sahilyanı ölkələrin deyil, həm də Avrasiyanın enerji, nəqliyyat və təhlükəsizlik arxitekturasına təsir göstərə bilər. Odur ki, məsələ təkcə bir çayın deyil, bütöv bir regionun gələcəyinin təminatı kimi qəbul edilməlidir.

***Ə.PÜNHAN***
***XQ***

# Mötəbər tarixi həqiqətlər məbədi

**(əvvəli ötən saylarımızda)**

Ümummilli lider Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışı ilə müstəqil Azərbaycan Respublikasının demokratik dəyərlərə sadiq dövlət kimi formalaşması və inkişafı prosesi başlandı. Heydər Əliyev dühasının müdrikliyi, çoxşaxəli fəaliyyəti, vətən və xalq qarşısındakı misilsiz xidmətləri Azərbaycan dövlətinin taleyində və onun demokratik dövlət olaraq inkişafında həlledici rol oynadı.

1993-cü ilin 15 iyunundan başlayaraq ölkəmizin ictimai-siyasi, sosial, iqtisadi, elmi-mədəni həyatında, beynəlxalq əlaqələrində dönüş yaradıldı. Yeni dövlət quruculuğu prosesi tarixi ənənələrə, elmi əsaslara və beynəlxalq norma və prinsiplərə uyğun inkişaf etməyə başladı.

Günlər, aylar, illər keçdikcə ölkənin bütün sahələrində durğunluq aradan qaldırılır, o cümlədən dövlət idarəetmə sisteminin əsas atributlarından olan arxiv işi sahəsində də yeni qanunvericilik aktlarının layihələrinin hazırlanmasına start verilirdi. Ulu öndər Heydər Əliyevin tapşırığı əsasında respublikamızda arxiv işinin təşkili prinsipləri və normalarını, onun inkişaf istiqamətlərini müəyyən edən ilk qanunvericilik aktının layihəsi hazırlandı.

“Milli arxiv fondu haqqında” Azərbaycan Respublikası Qanununun layihəsi geniş müzakirələrdən sonra 1999-cu il iyunun 22-də Milli Məclis tərəfindən qəbul edildi və Azərbaycan Respublikası Prezidentinin 27 iyul 1999-cu il tarixli 168 nömrəli fərmanı ilə tətbiq edildi. 5 fəsil və 23 maddədən ibarət olan qanun ölkəmizdə arxiv işinin gələcək inkişaf strategiyası müəyyənləşdirilməklə, Milli arxiv fondunun formalaşdırılması, mühafizəsi, istifadəsi, habelə dövlət arxiv xidməti təşkilatlarının fəaliyyətinin təşkili prinsiplərini və qaydalarını müəyyən edir.

Qanunda arxiv işi sahəsində dövlətin vəzifələri, arxiv işinin təşkilinin vahid prinsipləri, arxiv fondu sənədlərinin tərkibi, onların komplektləşdirilməsi, uçotu, mühafizəsi və istifadəsi, bu sahə ilə bağlı mülkiyyət formalarının tənzimlənməsi, arxivlərin qorunması və inkişafına təminat, arxiv sənədlərinin xaricə aparılması və xarici ölkələrin arxivlərində saxlanılan xalqımızın tarixi ilə bağlı sənədlərin surətlərinin ölkəmizə gətirilməsi, dövlət arxiv xidməti təşkilatlarının funksiyaları, arxiv kadrlarının hazırlanması kimi vacib məsələlər təsbit olunur.

Qanun Milli arxiv fondunun təşkili prinsiplərini müəyyən etməklə, həm də MAF-a daxil edilən sənədlərin tərkibi, onun komplektləşdirmə mənbələrini, habelə Milli arxiv fonduna məxsus sənədlərin idarə arxivlərində müvəqqəti saxlanma müddətlərini müəyyən edir. “Milli arxiv fondu haqqında” Qanun ölkəmizdə arxiv işi ilə bağlı bütün məsələləri əhatə etməklə, respublikamızın dövlət arxivlərinə qiymətli sənədlərin intensiv şəkildə cəmləşdirilməsinə, onlardan siyasi, iqtisadi, elmi və mədəni məqsədlər üçün istifadə olunmasına geniş imkanlar yaradır.



“Milli arxiv fondu haqqında” Azərbaycan Respublikası Qanunun və onun tətbiq edilməsi haqqında Fərmanın müvafiq maddələrindən irəli gələn vəzifələrin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti 25 avqust 1999-cu ildə “Dövlət arxivləri işçilərinin əməkhaqlarının tənzimlənməsi haqqında” qərar qəbul edir. Həmin qərarla dövlət arxivlərin işçilərinin vəzifə maaşları müvafiq sahədəki icra hakimiyyəti orqanının işçilərinin vəzifə maaşlarına uyğunlaşdırılır.

Sonrakı illərdə dövlət idarəetmə sistemində aparılan islahatlara uyğun olaraq, dövlət qurumlarında çalışan dövlət qulluqçusu olmayan işçilərin əməyinin ödənilməsində yeni mexanizm tətbiq edilir. Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 13 oktyabr 2004-cü il tarixli 453 nömrəli “Dövlət büdcəsindən maliyyələşən bir sıra təşkilatlarda işçilərin əməyinin ödənilməsinin tənzimlənməsi haqqında” Sərəncamının icrası məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti 27 yanvar 2005-ci il tarixli “Dövlət büdcəsindən maliyyələşən bir sıra təşkilatlarda çalışan işçilərin aylıq vəzifə maaşları haqqında” qərar qəbul edir. Həmin qərarla dövlət arxivlərində çalışan işçilərin aylıq vəzifə maaşlarının tənzimlənməsinin yeni mexanizmi müəyyən edilir.

“Milli arxiv fondu haqqında” Azərbaycan Respublikası Qanunun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin Fərmanından irəli gələn vəzifələrin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti 6 mart 2000-ci il tarixli 32 nömrəli qərarla “Milli arxiv fondunun komplektləşdirilməsi, mühafizəsi və ondan istifadə qaydaları haqqında Əsasnamə”, “Arxivlərin, arxiv fondlarının və sənəd kolleksiyalarının Milli arxiv fondunun tərkibinə daxil edilməsi, bu tərkibdən çıxarılması və ya məhv edilməsi Qaydası”, “Qeyri-dövlət arxiv fondlarının mühafizəsi üzrə Qaydalar”, “Aşkar edilmiş və ya tapılmış arxiv sənədlərini aşkar edən və ya tapan şəxsləri mükafatlandırma Qaydası”, “Dövlət arxiv fondu sənədlərindən istifadə Qaydaları” və “Beynəlxalq əməkdaşlıq məqsədi ilə sənədlərin və kolleksiyaların xaricə müvəqqəti aparılması Qaydası”nı təsdiq edir.



Adıçəkilən qərarla Müstəqil Azərbaycan Respublikasında arxiv işinin təşkili prinsipləri, arxiv fondu sənədlərinin komplektləşdirilməsi, mühafizəsi və istifadəsi qaydalarının elmi əsasları, Milli arxiv fondu sənədlərinin mühafizəsi üçün həyata keçirilməli olan tədbirlər, arxiv binalarına qoyulan tələblər, sənədlərin komplektləşdirməsi prosesinə daxil edilən işlər, arxiv fondu sənədlərinin Milli arxiv fondunun tərkibinə daxil edilməsi, bu tərkibdən çıxarılması və ya məhv edilməsi işinin təşkili qaydaları müəyyənləşdirildi.

Bundan əlavə, sənədlərin dəyərinin ekspertizasının keçirilməsi metodu və prinsipləri, dövlət mühafizəsinə qəbul üçün seçilən sənədlərin tərkibi, ekspert komissiyalarının fəaliyyətinin təşkili, qeyri-dövlət təşkilatlarının arxiv sənədlərinin Milli arxiv fonduna daxil edilməsi, həmin sənədlərə mülkiyyətçi hüququnun dövlət arxiv xidməti təşkilatlarına verilməsi qaydası, Azərbaycan xalqının tarixi və mədəniyyətinə aid qiymətli sənədləri aşkar edən və ya tapan şəxslərin mükafatlandırılması qaydası, hüquqi və fiziki şəxslərin, o cümlədən xarici ölkə vətəndaşlarının arxiv sənədlərindən istifadə formaları, dövlət arxivlərin oxu zallarında tədqiqatçılarla işin təşkili, Milli arxiv fondu sənədlərinin sənəd kolleksiyaların orijinal və ya onları əvəz edən nüsxələrinin müvəqqəti olaraq xaricə aparılması qaydasını müəyyən edən mükəmməl normativ hüquqi baza formalaşdırıldı.

Arxiv işinin təşkili qaydalarını müəyyən edən yeni qanunvericilik aktlarının qəbul edilməsi dövlət arxiv xidməti təşkilatlarının fəaliyyətini canlandırdı, arxivlərin komplektləşdirilməsi və arxiv sənədlərindən istifadə edilməsi sahəsində əsaslı dəyişikliklərə səbəb oldu. Əlbəttə, həmin illərdə ölkəmizdə mövcud olan iqtisadi çətinliklər arxivlərə də öz mənfi təsirini göstərirdi. Xüsusilə dövlət arxivlərinə sənədlərin mühafizəsi üçün binaların tikilə bilməməsi və yaxud arxivlər üçün yeni binaların ayrılmaması dövlət orqanlarından, idarə və müəssisələrdə saxlanılan vaxtı çatmış sənədlərin dövlət mühafizəsinə qəbulunda çətinliklər yaradırdı.

Xalqımızın tarixinin ilk mənbələr əsasında öyrənilməsində, dövlət orqanlarının, idarə və müəssisələrin, habelə vətəndaşların informasiyaya olan gündəlik tələbatının ödənilməsində, vətəndaş cəmiyyətinin formalaşdırılmasında dövlət arxivlərinin roluna yüksək dəyər verən ümummilli lider Heydər Əliyev 2 dekabr 2002-ci ildə “Azərbaycan Respublikasında arxiv işinin təkmilləşdirilməsi haqqında” Fərman imzaladı. Fərmanla Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Baş Arxiv İdarəsinin bazasında ölkədə arxiv sahəsində dövlət siyasətini həyata keçirən mərkəzi icra hakimiyyəti orqanı hüquqi statuslu Milli Arxiv İdarəsi yaradıldı.

Eyni zamanda, Azərbaycan Respublikasının Nazirlər Kabinetinə dövlət arxiv xidməti təşkilatlarının maddi-texniki təchizatının təkmilləşdirilməsi, arxiv xidmətinin lazımi binalarla təmin olunması, mövcud arxiv binalarında təmir və bərpa işlərinin aparılması, arxiv təşkilatı işçilərinin sosial vəziyyətinin yaxşılaşdırılması üzrə proqramının hazırlanması tapşırıldı.

Fərmanla dövlət arxiv xidmətinin statusu ölkədə gedən dövlət quruculuğu işinin tələblərinə uyğun təkmilləşdirilir. Eyni zamanda, Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 27 sentyabr tarixli 934 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Milli Arxiv İdarəsi haqqında” Əsasnamə ilə yeni yaradılan Milli Arxiv İdarəsinin hüquqi statusu, vəzifələri, funksiyaları, səlahiyyətləri və idarədə işin təşkili prinsipləri müəyyənləşdirilir.

Milli Arxiv İdarəsinə arxiv işi sahəsində dövlət siyasətinin formalaşdırılmasında iştirak etmək, onun inkişafının konsepsiya və strategiyasını hazırlamaq, Milli arxiv fondunun sənədlərinin komplektləşdirilməsi, uçotu və istifadəsinin vahid prinsiplərini müəyyən etmək, dövlət orqanlarında arxiv işini təşkilini əlaqələndirmək, Milli arxiv fondunun mərkəzləşmiş dövlət uçotunu aparmaq, beynəlxalq əlaqələr yaratmaq, arxiv işinin təşkilinə dair mərkəzi və yerli icra hakimiyyəti orqanları, idarə, müəssisə və təşkilatlar üçün icrası məcburi olan normativ hüquqi aktları qəbul etmək kimi mühüm səlahiyyətlər verilir.

Azərbaycan Respublikasının Nazirlər Kabineti “Azərbaycan Respublikasında arxiv işinin təkmilləşdirilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin fərmanından irəli gələn vəzifə və tapşırıqların icrasını təmin etməklə dövlət arxiv xidməti təşkilatlarının maddi-texniki təchizatının yaxşılaşdırılması və arxiv işinin təşkili qaydalarının təkmilləşdirilməsi məqsədilə bir sıra sərəncam və qərarlar qəbul edir. Nazirlər Kabinetinin 30 dekabr 2002-ci il tarixli 274 nömrəli sərəncamı ilə Milli Arxiv İdarəsinin mərkəzi aparatının işçilərinin say həddi və İdarənin mərkəzi aparatı üçün xidməti minik avtomobillərin limiti müəyyən edilir.

16 fevral 2004-cü il tarixli 12 nömrəli qərarla ”Arxiv xidməti təşkilatlarının maddi-texniki təchizatının təkmilləşdirilməsi, arxiv xidmətinin lazımi binalarla təmin olunması, mövcud arxiv binalarında təmir və bərpa işlərinin aparılması, arxiv təşkilatı işçilərinin sosial vəziyyətinin yaxşılaşdırılması üzrə Proqram” təsdiq olundu. 2003-2007-ci illəri əhatə edən və 18 bəndən ibarət Proqramda respublikamızda arxiv işinin hər tərəfli inkişafını təmin etmək, arxiv sənədlərinin etibarlı mühafizəsi üçün maddi-texniki baza yaratmaq, dövlət arxivlərinin lazımı binalarla təmin etmək, arxiv binalarını əsaslı təmir etmək, onlarda sənədlərin mühafizəsi üçün optimal istilik-rütubət rejimini yaratmaq, dünya ölkələrinin arxiv və muzeylərində saxlanılan xalqımızın tarixi ilə bağlı sənədlərin surətlərini toplamaq və digər tədbirlərin icrası nəzərdə tutulur.

Milli Arxiv İdarəsi müvafiq illərdə Proqramda nəzərdə tutulan bir sıra tədbirlərin icrasını təmin edir. Bakı şəhəri Mətbuat prospektində yerləşən AMEA-ya məxsus bir binanın Milli Arxiv İdarəsinin balansına verilməsi təmin edilir, bina əsaslı təmir edilərək arxiv üçün uyğunlaşdırılır, müasir isitmə-soyutma, havalandırma, yanğından mühafizə sistemləri ilə təchiz olunur və arxivin mühafizəxanalarında arxiv fondu sənədlərinin mühafizəsi üçün optimal şərait yaradılır. Əməkdaşların iş otaqları müasir tələblərə uyğun təmir edilir və zəruri ofis avadanlıqları ilə təchiz olundu.

Binanın açılışında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev şəxsən iştirak etməklə görülmüş işlərə yüksək qiymət verdi. Milli Arxiv İdarəsinin yerləşdiyi əsas inzibati binasında və dövlət arxivləri üçün 1960-cı illərdə tikilmiş binalarda əsaslı təmir işləri aparılır, yanğına qarşı qurğuların, istilik və havalandırma sistemlərinin, sənəd daşıyan liftlərin yenilənməsi, iş otaqlarının ofis avadanlıqları ilə təchiz edilməsi təmin olunur. Respublika Dövlət Arxivinin Gəncə və Şəki filiallarına 500 min saxlama vahidi tutumlu yeni arxiv binalarının inşası təmin olunur. Dövlət Arxivinin bir sıra filiallarında və rayon dövlət arxivlərində arxiv fondu sənədlərinin mühafizəsi şəraitinin optimallaşdırılması və əməkdaşların iş şəraitinin yaxşılaşdırılması təmin edilir.



Respublikamızda arxiv quruculuğunun 85 illiyi ilə əlaqədər Azərbaycan Respublikası Prezidentinin 22 dekabr 2005-ci il tarixli 1191 və 1192 nömrəli Sərəncamları ilə dövlət arxiv xidməti təşkilatlarının bir qurup əməkdaşlarına “Əməkdar mədəniyyət işçisi” fəxri adı verilir və “Tərəqqi” medalı illə təlif olunurlar. Azərbaycan Respublikası Prezidentinin iyul 2010-cu il tarixli 1015 nömrəli Sərəncamı ilə Milli Arxiv İdarəsinin şöbələrdən və sektordan ibarət strukturu və Nazirlər Kabinetinin 25 aprel 2011-ci il tarixli 57 nömrəli qərarı ilə “Azərbaycan Respublikası Milli Arxiv İdarəsinin strukturuna daxil olmayan tabeliyindəki qurumların Siyahısı” təsdiq olundu.

Adıçəkilən qərarla təsdiq edilmiş Siyahıya əsasən Milli Arxiv İdarəsinin tabeliyində 6 dövlət arxivi, Dövlət Arxivinin 15 filialı və 50 rayon dövlət arxivi, Milli Arxiv İdarəsi yanında İdarə Sənədlərini qaydaya salan təssərrüfathesablı Mərkəz, habelə Naxçıvan Muxtar Respublikası Dövlət Arxiv İdarəsi və onun tabeliyindəki dövlət arxivləri fəaliyyət göstərir. 2010 - 2017-ci illədə Milli Arxiv İdarəsi Dövlət arxivlərinin əsas iş qaydalarını, dövlət orqanlarında idarə, müəssisə və təşkilatlarında sənədlərlə işin təşkili, onların idarə olunması və mühafizəsi sahəsində fəaliyyətin tənzimlənməsi məqsədilə idarəetmə və elm-texnika fəaliyyəti sahələrində yaranan sənədlərin saxlanılma müddətlərini müəyyən edən Nümunəvi Siyahını, həmçinin dövlət və bələdiyyə orqanlarında, idarə, təşkilat və müəssisələrdə arxiv işinin təşkilinin norma və prinsiplərini müəyyən edən Təlimatı, eləcə də digər normativ-metodiki vəsaitləri hazırlanaraq təsdiq edir. Hazırlanmış normativ hüquqi aktların Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi təmin olunur.

Azərbaycan Respublikasının dövlət arxiv xidməti təşkilatları Azərbaycan Respublikası Prezidentinin müvafiq Fərmanına uyğun olaraq yaradılan “ASAN xidmət” mərkəzlərinin “arxiv bölmələri”ndən 2013-cü ildən etibarən əhaliyə operativ və şəfaf arxiv xidmətlərinin göstərilməsinə başlanılır. Hazırda xidmətin əhatə dairəsi daha da genişlənmiş və dövlət arxiv xidməti təşkilatlarına daxil olan ümumi müraciətlərin 50%-dən çoxunu təşkil edir. Dövlət arxiv xidmətlərinin elektron hökumət portalına inteqrasiyası təmin edilərək hüquqi və fiziki şəxslərə göstərilən xidmətlərin operativliyi və şəffaflığı təmin olunur, ölkədə arxiv işinin beynəlxalq təcrübəyə və müasir texnoloji nailiyyətlərə uyğun modernləşdirilməsi məqsədilə tədbirlər həyata keçirilir.

2019-cu ildə arxiv işi sahəsinə aid qanunvericiliyin təkmilləşdirilməsi, dövlət arxiv xidməti təşkilatlarının şəbəkəsi və strukturunun optimallaşdırılması, arxiv xidmətlərinin rasionllığının artırılması, arxiv işinin İKT tətbiq etməklə modernləşdirilməsi, Milli arxiv fondu sənədlərinin rəqəmsallaşdırılması, Vahid elektron arxiv informasiya sisteminin yaradılması, arxiv sahəsində beynəlxalq əməkdaşlığın genişləndirilməsini təmin edən kompleks tədbirlərin məcmusu olaraq hazırlanmış Azərbaycanda arxiv işinin inkişafına dair konsepsiya baxılmaq üçün ali dövlət hakimiyyəti orqanına təqdim olunur.

Layihəyə Azərbaycanda arxiv işinin vəziyyəti, onun inkişafı istiqamətləri və məqsədi barədə müddəalar daxil edilir. 50-ə yaxın dövlət orqanından daxil olan rəy və təkliflər əsasında mətnə əlavə və düzəlişlər edilən layihə Nazırlər Kabineti tərəfindən təsdiq üçün Azərbaycan Respublikası Prezidentinin Administrasiyasına təqdim edilir. Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 12 fevar tarixli 1815 nömrəli Sərəncamı ilə “Azərbaycan Respublikasında arxiv işinin inkişafına dair 2020-2025-ci illərə dair Dövlət Proqramı” təsdiq olunur.

Milli Arxiv İdarəsi Dövlət Proqramında qarşıya qoyulmuş vəzifələrin yerinə yetirilməsinin təmin edilməsi üçün bütün təşkilati-hüquqi imkanlarından istifadə edərək, Dövlət Proqramının birgə icraçısı olan digər dövlət qurumları ilə əlaqəli şəkildə müvafiq tapşırıqların icrasını həyata keçirməyə başlayır. İlk növbədə ölkədə arxiv işinin beynəlxalq standartlara və normalara uyğun yenidən təşkili məqsədilə bu sahəni əhatə edən qanunvericilik aktlarının təkmilləşdirilməsi, yeni normativ hüquqi aktların layihələrinin hazırlanması təmin edilir. “Milli arxiv fondu haqqında” Azərbaycan Respublikasının Qanun”ununda dəyişikliklər edilir.

Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 18 avqust tarixli 1812 və 1813 nömrəli Fərmanları ilə “Milli arxiv fondu haqqında” Azərbaycan Respublikasının Qanununun tətbiq edilməsi haqqında Fərmanda və “Azərbaycan Respublikasının Milli Arxiv İdarəsi haqqında Əsasnamədə dəyişikliklər edilir. Sahə ilə əlaqəli bir sıra qanunvericilik aktlarında zəruri əlavə və düzəlişlər olunur və onların müasir dövrün tələblərinə uyğun təkmilləşdirilməsi, yeni hüquqi normalar, anlayışlar daxil edilməklə zənginləşdirilməsi təmin edilir. İnzibati Xətalar Məcəlləsində, Mülki Məcələdə edilən dəyişiklər mahiyyət etibarilə dövlət arxiv xidməti təşkilatlarının səlahiyyətlərini genişləndirməklə, onların arxiv sənədlərinin mühafizəsi və istifadəsi sahələrində idarə arxivlərinə nəzarət imkanlarını genişləndirir və inzibati qərarların qəbulu üçün hüquqi əsaslar yaradır.

Azərbaycan Respublikası Prezidentinin müvafiq Fərmanlarından irəli gələn vəzifələrin icrası məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti 24 avqust 2022-ci il tarixli 543s və 544s nömrəli Sərəncamları ilə ölkədə arxiv işi sahəsində fəaliyyətin təşkili və tənzimlənməsi təmin edən bəzi normativ hüquqi aktların layihələrinin hazırlanması Milli Arxiv İdarəsinə tapşırılır. Milli Arxiv İdarəsi müvafiq tapşırığın icrası ilə bağlı 10-a yaxın yeni normativ hüquqi aktın layihəsini hazırlayır və aidiyyəti dövlət orqanları ilə razılaşdıraraq təsdiq üçün Nazirlər Kabinetinə təqdim edir.

Nazirlər Kabinetinin 2022-ci il 27 dekabr tarixli 785s nömrəli Sərəncamı ilə Milli Arxiv İdarəsi aparatının və dövlət arxiv xidməti təşkilatlarının işçilərinin say həddi təsdiq olunur. Nazirlər Kabinetinin digər qərarları ilə ölkədə arxiv işi sahəsində fəaliyyətin tənzimlənməsində xüsusi əhəmiyyət kəsb edən daha beş normativ hüquqi akt təsdiq edilir.

Sözügedən qanunvericilik aktlarına Nazirlər Kabinetinin 14 fevral 2023-cü il tarixli 47 nömrəli Qərarı ilə təsdiq edilmiş “Arxiv fondlarının tərkibi və həcmi barədə məlumatların verilməsi forması”ı və “Milli arxiv fondu sənədlərindən istifadə Qaydası”, 24 may 2023-cü il tarixli 163 nömrəli Qərarla təsdiq edilmiş arxiv fondu sənədlərinin dövlət mühafizəsinə təhvil verilməsi normalarını müəyyən edən “Arxiv fondu sənədlərinin daimi dövlət mühafizəsinə təhvil verilməsi Qaydası”ı, həmçinin “Milli arxiv fondu haqqında” Azərbaycan Respublikası Qanununun müddəalarına uyğun olaraq dövlət arxivləri tərəfindən fiziki və hüquqi şəxslərə göstərilən arxiv xidmətlərinin əhatə dairəsini müəyyən etmək, onun rasionallığını təmin etmək məqsədilə hazırlanmış və NK-nın 31 iyul 2023-cü il tarixli 251 və 252 nömrəli qərarları ilə təsdiq edilmiş “Ödənişli arxiv xidmətlərinin siyahısı və onların göstərilməsinə görə xidmət haqlarının məbləği” və ödənişli arxiv xidmətlərin göstərilməsindən daxil olan büdcədənkənar vəsaitlərin istifadəsi qaydalarını müəyyən edən “Dövlət arxiv xidməti işçilərinin sosial müdafiəsinin gücləndirilməsi və dövlət arxiv xidmətinin maddi texniki bazasının yaxşılaşdırılması məqsədilə Azərbaycan Respublikası Milli Arxiv İdarəsinin hesabına köçürülən vəsaitdən istifadə Qaydası”ı daxildir.

**(ardı var)**

***Əsgər RƏSULOV,***
***Milli Arxiv İdarəsinin rəisi,***
***Həsən HƏSƏNOV,***
***rəis müavini***

# Ulu öndər haqqında kitabın Riqada təqdimatı

**Riqada hüquq elmləri doktoru, diplomat, Ukraynanın Əməkdar təhsil işçisi, professor Arif Quliyevin "Millətin atası" kitabının təqdimatı keçirilib.**




Ukraynalı könüllülər xalqımızın ümummilli lideri Heydər Əliyevin həyat və fəaliyyətinə həsr olunmuş nəfis tərtibatlı nadir monoqrafiyanı Latviya paytaxtındakı Diaspor kitabxanasına hədiyyə ediblər. Bu dəyərli elmi əsərin müəllifi tanınmış ukraynalı alim, Azərbaycan əsilli professor Arif Quliyevdir. Müəllif əsəri ilə yalnız tarixə işıq salmır, həm də xalqlar arasında mədəni körpülərin möhkəmlənməsinə xidmət edir.

Kitabın təqdimatında Latviyadakı Azərbaycan səfirliyinin katibi Orxan Qarayev dəyərli monoqrafiyaya görə təşəkkürünü bildirib və qeyd edib ki, bu kimi təşəbbüslər ölkələr arasında əlaqələri daha da genişləndirir, qarşılıqlı anlaşmanı dərinləşdirir və tarixi yaddaşı qoruyub saxlayır. "Təqdim olunan kitabın adı özündə dərin bir məna ehtiva edir – "Millətin atası". Bu, sadəcə faktların tarixi xronologiyası deyil, dövlət quruculuğu, mədəniyyət, ideallar və xalqın mənəvi gücü haqqında dərin düşüncəli söhbətdir. Dahi lider Heydər Əliyevin şəxsiyyətini, strateji düşüncə özəlliyini xarakterizə edən məqamlar konkret faktlar vasitəsilə oxucuya təqdim olunur".

Professor Arif Quliyev çıxışında vurğulayıb ki, dünyanın sürətlə dəyişdiyi bir zamanda müdriklik və liderlik keyfiyyətləri ilə seçilən şəxsiyyətlərin nümunəsinə müraciət etmək son dərəcə vacibdir. "Heydər Əliyev məhz belə bir lider idi. Onun sözləri dövlətlər, xalqlar və düşünən insanlar üçün bələdçi rolu oynayır. Qürur duyuram ki, monoqrafiyam haqqında bu cür yüksək fikirlər səslənir: Sizin kitabınız siyasət, mədəniyyət, təhsil, elm və milli ləyaqət prizmasından Əliyev irsini dəyərləndirən intellektual bir xəzinədir".

Qeyd olunub ki, akademik çevrələrdə artıq müsbət rəy almış bu monoqrafiya Latviyadakı kitabxananın mühüm bir hissəsinə çevriləcək, Azərbaycan diasporunun üzvləri də daxil olmaqla, beynəlxalq tarix, siyasət və milli kimlik məsələlərinə maraq göstərən oxucular üçün ilham mənbəyi olacaq.

Mərasimdə Ukrayna və Latviyadakı Azərbaycan icmaları arasında faydalı əməkdaşlığı davam etdirmək qərara alınıb və qeyd edilib ki, bu, gələcəkdə mədəni əməkdaşlıq, elmi mübadilə və milli kimliyini qoruyub saxlayan gənc nəslin dəstəklənməsi üçün yeni imkanlar açır. Bu nəcib addım – təkcə bir mədəni təşəbbüs deyil, həm də əsl xalq diplomatiyasının parlaq nümunəsidir. Burada kitablar ölkələr arasında anlaşma körpüsünə çevrilir, görkəmli şəxsiyyətlərin xatirəsi isə ortaq güc mənbəyi olur.

*Veronika ÇEKALYUK,*
*Taras Şevçenko adına Kiyev Milli Universitetinin Jurnalistika İnstitutunun doktorantı, elmlər namizədi*

*Yeni nəşrlər*

# İyul və avqustun "Ulduz"u qovuşub

**Azərbaycan Yazıçılar Birliyinin mətbu orqanı olan "Ulduz" jurnalının iyul-avqust sayı dərc edilib. Dərgi "Yeni nəsil: tənqid+" adlı yeni layihə "Ulduz" ilə C.Cabbarlı adına Respublika Gənclər Kitabxanasının birgə əməkdaşlığı sayəsində ərsəyə gəlib.**



Jurnal Qismət Rüstəmovun tərcüməsində Adam Kirşin "Qlobal roman: XXI əsrdə dünyanı yazmaq" məqaləsi ilə açılır. "Tənqid" bölümü Ramil Əhmədin "Xatırlamanın və unutmağın səsi", Ülvi Babasoyun "Ədəbi tənqidin susmaq formaları", Qismət Rüstəmovun "Qar Tanrısının qeydiyyatı haradır?", Tomas Eliotun "Tənqidin hədləri" yazılarını təqdim edir.

Ədəbi-bədii dərginin "Şeir vaxtı"nda Alik Əlioğlu, Feyziyyə, Rəbiqə Nazimqızı, Şəhriyar Del Gerani, Günel Şamilqızı, Anar Amin, Elçin Səlimlidən poetik nümunələr yar alır. "Nəsr"də "Həmin işıqlı günlər" hekayəsi ilə Cavid Zeynallı, "Pələng" hekayəsi ilə Ülviyyə Heydərovadır. "Tərcümə saatı"nda Seyfəddin Hüseynli Andrey Volosun "Çulışman" əsərinin dilimizə çevirməsini oxuculara çatdırır. "Dərgidə kitab"da Kamil Şahverdinin "Bir daha himnimiz haqqında" (1-ci hissə) yazısı verilib.

"Dərgidə sərgi" rubrikasının budəfəki qonağı gənc rəssam Naqiyə Rzayevadır.

*XQ*

## Hər kitab bir dünyadır

### *"Fəzlullah Nəimi və hürufilik hərəkatı"*




**AMEA Şərqşünaslıq İnstitutunda çıxan yeni monoqrafiyada XIII-XIV əsrlərdə Azərbaycanda siyasi-ictimai vəziyyət və hürufilik hərəkatının meydana çıxmasını şərtləndirən amillər geniş tədqiq olunub.**

İnstitutun Şərq ölkələrinin tarixşünaslığı şöbəsinin müdiri, tarix elmləri doktoru, professor Məryəm Seyidbəyli, həmin şöbənin elmi işçiləri Elxan Quliyev və Röya Mirzəbəyovanın müəllifliyi ilə yazılıb ərsəyə gələn kitabda hürufilik təmayülünün banisi – görkəmli mütəfəkkir Fəzlullah Nəiminin həyat və yaradıcılığı, ədəbi irsi farsdilli mənbələr əsasında araşdırılıb. Eyni zamanda, hürufiliyə dair ilk yazılı qaynaqlar nəzərdən keçirilib və monoqrafiyada o dövrdə Azərbaycanın tanınmış arifləri haqqında məlumatlar öz əksini tapıb.

İki fəsil, nəticə və ədəbiyyat hissəsindən ibarət olan kitab Azərbaycan və ingilis dillərindədir.

### *"Tanımadığımız Konfutsi"*




**Bu kitab təxminən, 2500 il əvvəl qədim Çində yaşamış, bəşər tarixinin ən görkəmli müəllimlərindən və filosoflarından biri sayılan Konfutsi və onun təlimi haqqındadır. Əsər Konfutsinin məşhur "Lun Yü" ("Söhbətlər və mühakimələr") kitabı əsasında hazırlanaraq, Heydər Əliyev Fondunun təşəbbüsü və dəstəyi ilə 2-ci dəfə nəşr olunub.**

Konfutsilik Çin mədəniyyətinə dərin təsir göstərib və bu gün də onun ayrılmaz hissəsi olaraq qalır. Konfutsi fəlsəfəsi Qədim Çin mədəniyyətinin əsas düsturudur. Bu fəlsəfədə əsas məsələ etika və əxlaqdır. İnsaniyyət və nəciblik ön planda tutulur.

Kitabın müəllifi, filosof Müşfiq Ötgünün bildirdiyinə görə, əsər ilk dəfə 2016-cı ildə işıq üzü görüb. "Kitabın adı və məzmunu klassik fəlsəfə dərsliklərində Konfutsiyə ayrılan hissələrdən tam fərqlidir. Konfutsi bəşəriyyətin böyük müəllimlərindən biridir və onun hikmətindən bütün dünya agah olmalıdır".

*Ə.DOSTƏLİ*
*XQ*

# Elm, fəlsəfə və ədəbiyyat

**(2-ci yazı)**

### Bədii mətnlərdə zaman və məkan anlayışı

Məkan və zaman anlayışı uzun müddətdir elmi-fəlsəfi münasibətdən kənarda qalmayıb və çağdaş dövrümüzdə, eyni zamanda bəşəriyyətin mövcud olduğu bütün zaman kəsiyində maraq dairəsindən kənarda qalmayacaq. Biz elə indicə zamandan və məkandan danışmağa başladıq – qeyri-ixtiyari. Yazmağa başladığımız an və hazırda zaman və məkandan qıraqda deyilik. Yəni nə etməyimizdən asılı olmayaraq məkan və zamanın içindəyik. Bəzən bunun fərqinə varırıq, bəzən yox.

Fərqinə vardığımız zaman ani də olsa düşünürük – zaman nədir, məkan deyəndə nə başa düşülür. Hər bir kəsin bu suallara müəyyən cavabı var. Lakin elmi-fəlsəfi düşüncə müstəvisində bu kateqoriyalara verilən təriflər yeni mənalara pəncərə açır ki, bu mənalar yaradıcı sahələrə də yeni, fərqli yanaşmalar gətirir. Bədii əsərlərə intellektual biçim verməklə onların dəyərini artırır. Əvvəlki mövzularda elmi faktların, anlayışların, fəlsəfi dünyagörüşünün ədəbiyyatda əhəmiyyətindən söz açmışdıq. Məkan və zaman anlayışlarına baxış da o söhbətin davamıdır. Bu anlayışlar ətrafında yaranan fərqli düşüncə şəbəkəsi bədii əsərlərə necə nüfuz edir – məsələyə konkret nümunələrdə nəzər salacağıq.

Bəs məkan və zaman elmi-fəlsəfi düşüncədə necə görünür?

**Məkan** – maddi cisimlərin və hadisələrin müəyyən yer tutumuna malik olmasını, cisimlər arasında xüsusi surətdə yerləşməsini ifadə edir. Və bütün maddi cisimlər en, uzunluq və hündürlüyə malikdir.

**Zaman** – cisim və hadisələrin müəyyən ardıcıllıq və sürekliliklə davam etməsini, dövrlər, mərhələlər üzrə inkişaf etməsi xassəsini ifadə edir və birölçülü axına malikdir: keçmişdən gələcəyə doğru.

Nyutona görə, məkan-zaman maddi cisimlərin müəyyən ardıcıllıqla yerləşdiyi rəflər, pillələrdir.

Leybnits bu konsepsiyanın əksinə olaraq məkan və zamanın maddi obyekt və proseslərdən asılı olmayaraq müstəqil mövcudluğunu inkar edərək, onların mahiyyətini predmet və hadisələr arasındakı xüsusi tip münasibətlərdə görür. Bu konsepsiya öz başlanğıcını Aristotelin məkan və zaman təlimindən götürür.

Avqustin hesab edirdi ki, zaman – hərəkət və dəyişmənin ölçüsüdür. Filosofun fikrincə, yalnız indiki zaman mövcuddur və insan yalnız indiki zamanda keçmiş və gələcək barədə düşünə bilər. Keçmiş və gələcək insan şüurunun məhsuludur. Keçmiş – yaddaş, gələcək – ümiddir.

Kanta görə isə zaman və məkan aprioridir. İnsan şüurunun yaratdığı şəbəkədir.

Yuxarıda zamanın bir istiqamətli olduğu göstərildi; keçmişdən gələcəyə düz xətt boyunca. Lakin fəlsəfi fikir tarixində fərqli yanaşma da mövcuddur; zaman – dairəvi və ya dalğavaridir, dövri olaraq başlanğıc vəziyyətinə qayıdır.

Öz-özlüyündə hər bir yanaşma maraqlıdır, bədii materialdır və bu materialdan mövzu olaraq seçilmiş əsərə bədii don biçilməsi mümkündür. Zaman-məkan barədə əldə etdiyimiz bilgilərə rəğmən, maraq üçün bir fərqli yanaşma sərgiləyək: fərz edək ki, zaman gələcəkdən keçmişə doğru hərəkətdədir. Nə baş verər onda?–Gələcək və keçmiş yerini dəyişər, təbii.



### Tərsinə zaman

**Gəlin,**
**zamanın tərsinə gərdişinə baxaq. Bəli.**
**Bəli, məhz tərsinə gərdişinə –**
**gözlənilmədən doğulan birinin timsalında.**

**Hamı heyrət içində donub qalmışdı**
**doğum evində. Ana çevirib üzünü divara**
**hönkürürdü dəhşət içində; körpəsi**
**qoca doğulmuşdu – möcüzəyə bax!..**

**Bir neçə gün sonra**
**tutub qocasının əlindən evinə döndü ana.**
**Və sevdi qocasını kiçildə-kiçildə.**

**Yaşıdı körpələr böyüdükcə, o kiçilirdi. Yaşlanma – böyümək imiş demə.**
**O isə kiçilirdi... yəni böyüyürdü tərsinə.**
**Əvvəl ortayaş adama çevrildi, sonra cavana.**
**Qoluna taxdığı saatın əqrəbləri tərsinə fırlanırdı.**
**Tərsinə dəyişirdi təqvimdəki günlər də; ayın 30-u,**
**sonra 29-u, ... ,beləcə, 1-i son günü olurdu yaşadığı ayların...**

**Sonra yeniyetməyə çevrildi, sonra uşağa.**
**Bir günsə həmyaşıdı nəvəsiylə əl-ələ tutub yollandı bağçaya.**

**Bir günsə çevrilib körpəyə köçdü dünyadan.**
**Ana qocalıb ölmüşdü, görmədi körpəsini.**

**Tərsinə gərdişinə baxdıq zamanın**
**gözlənilmədən qoca doğulan birinin timsalında.**
**Amma nəticə eyni; zaman**
**eyni nöqtədə qapandı, deyəsən.**

Deməli, zaman – keçmiş, bu an (indi) və gələcək kimi hissələrə ayrılmış kəsimlər kimi zənn olunur. Keçmiş anlayışına sahib olmağımızın yeganə səbəbi yaddaşımıza yaşanmış bəzi hadisələrin verilməsidir. Gələcəklə bağlı hadisələrsə yaddaşımızda yoxdur. Buna görə də biz bu hadisələri yaşanacaq, baş verəcək hadisələr kimi qəbul edirik. Bəzi mülahizələrə görə, keçmiş bizim üçün yaşanmış, təcrübə edilmiş, görülmüş hadisələr olduğu qədər, gələcək də eyni şəkildə yaşanmış hadisələrdən ibarətdir. Sadəcə, bu hadisələr bizim yaddaşımıza verilmədiyi üçün bunları bilmirik.

Məkan və zaman anlayışlarına dair bu kimi fərqli və maraqlı fikirlərin siyahısını uzatmaq mümkündür və bütün bunlar, təbii ki, bədii əsərlər üçün xammal rolu oynayır. Artıq bu anlayışlara elmi-fəlsəfi baxış onları ədəbi sferaya transfer etmənin mümkünlüyünü yaradır.

Bizi əhatə edən nə varsa, zaman və məkandan xəbər verir. Fotolara nəzər salaq. İlk ağıla gələn məsələlərdən biri donmuş məkan və zaman anlayışıdır. Bu, öz yerində. Zaman haqqında biliklərimiz imkan verir ki, ondan bədii aparat kimi istifadə edib, hadisəyə fərqli bədii biçim verə bilək. Fikirlərimizi qismən də olsa əsaslandırmaq üçün, gəlin, "zaman boyu səyahət" edək.

### Zaman boyu səyahət

Hər dəfə fotolara baxarkən zaman barədə düşünür: Hadisələrdən yalnız bir parça qalır şəkillərdə. Nə geriyə yol var zaman boyu, nə də irəli məkandan fərqli.

O adam elə indicə keçib getmişdi bu küçədən, odur, qayıdır. Yol kənarında ağacın altında yem axtaran quş görüb onu, qalxdı havaya.

**Məkanda**
**üç ölçü cızıldı bir anda.**

**Zamansa...**
**nə geriyə getmək olur,**
**nə də irəli, - məkandan fərqli. Amma**
**məkanlar da var;**
**nə getmək olur, nə də qayıtmaq –**
**yolları bağlı.**

**Birdən**
**böyüyür qarşısındakı foto. Böyüyür**
**en və uzunluq boyu. Böyüyür,**
**iri bir ekrana dönür. Azca səksənir**
**əvvəlcə. Qəfil hadisələrə alışıb deyə,**
**sonra seyr edir**
**böyüyən müstəvini təmkinlə:**

**Görür öz körpəliyidi ekranda. Tutur əlindən**
**aparır əvvəlcə bağçaya, sonra məktəbə,**
**sonra yenə də harasa. Elə hey gedib-gəlirlər.**
**Arada tutub əl-ələ qalxırlar havaya.**

**Müxtəlif hadisələr yaşanır bu gediş-gəliş**
**və uçuş-enişlərdə. Bəzisi aydın təsvir olunur**
**ekranda, bəzisi tutqun. Bəzisi heç görünmür,**
**itir qaranlığın içində.**

**Hər hadisədən hadisəyə böyüyür uşaq.**
**O qədər böyüyür, axırda ikisi bir adam olur.**
**Qaralır ekran, kiçilir müstəvi və**
**qarşısında foto – uşaqlıq şəkli.**

**Gedib qayıtdı keçmişdən. Amma**
**məkanlar da var, məkanlar;**
**nə getmək olur, nə də qayıtmaq -**
**yolları bağlı.**

Fotolara baxdıq, zaman barədə düşündük qeyri-ixtiyari. Amma istənilən hadisə, istənilən predmet insana zamanı və məkanı xatırladır. Cavan da, qoca da. Əsa da, avtomobil də...

**(ardı var)**

*Əli Şirin ŞÜKÜRLÜ,*
*riyaziyyat üzrə fəlsəfə doktoru, şair-esseist*

# Məktəblilərimizin beynəlxalq olimpiada uğuru

**Boliviyanın paytaxtı Sukre şəhərində keçirilən məktəblilərin 37-ci Beynəlxalq İnformatika Olimpiadasında (IOI 2025) Azərbaycan komandası 1 gümüş, 2 bürünc medal və 1 həvəsləndirici mükafata layiq görülüb.**

Elm və Təhsil Nazirliyindən bildirilib ki, Bakı şəhəri, Akademik Zərifə Əliyeva adına liseyin 9-cu sinif şagirdi Ayxan Dəmirli gümüş, Bakı şəhəri, 157 nömrəli məktəbin 10-cu sinif şagirdi Həsən Vəliyev və Bakı şəhəri, Fizika, riyaziyyat və informatika təmayüllü liseyin 11-ci sinif şagirdi Elvin İmanlı bürünc medal qazanıblar. Bakı şəhəri, Ankara liseyinin 11-ci sinif şagirdi Əli Əliyev isə həvəsləndirici mükafata layiq görülüb.




Qeyd edək ki, məktəblilərimiz sözügedən olimpiadada 1994-cü ildən iştirak edirlər. 1994–1999-cu illərdə 2 medal, 2000–2009-cu illərdə 2 medal, 2010–2019-cu illərdə 1 medal, 2020–2025-ci illərdə 11 medal qazanılıb.

Cari tədris ilində 1 gümüş, 2 bürünc medal və 1 həvəsləndirici mükafat qazanmaqla şagirdlərimiz ölkə olaraq tariximizin ən yüksək nəticəsinə imza atıblar. Həmçinin iki şagirdimiz dünya məktəbliləri arasında ilk yüzlükdə qərarlaşıb.

Son illərdə informatika fənni üzrə beynəlxalq olimpiadalara hazırlıq prosesi Elm və Təhsil Nazirliyi və Təhsil İnstitutunun "Azercell Telekom" MMC ilə əməkdaşlığı çərçivəsində həyata keçirilir.

*XQ*

# Bizdə şeir də var, sənət də vardır...

Azərbaycan hər zaman şairlər yurdu kimi tanınıb. Xalqımız tarixən şeirə, sənətə bağlı olub. Dövlət səviyyəsində də ədəbiyyata örnək qayğı göstərilib.

Təsadüfi deyil ki, bu il ölkəmizdə qüdrətli şair və böyük maarif xadimi Seyid Əzim Şirvaninin 190, Xalq şairi, akademik Bəxtiyar Vahabzadənin 100, Xalq şairi Fikrət Qocanın 90 illik yubileyləri dövlət səviyyəsində qeyd olunur.

Elə ötən ayın sonunda ölkəmizdə Heydər Əliyev Fondu, Mədəniyyət Nazirliyi və Azərbaycan Yazıçılar Birliyinin (AYB) təşkilatçılığı ilə 15-ci Vaqif Poeziya Günlərinin keçirilməsi ədəbiyyata özəl diqqətin daha bir əyani sübutudur.

Ənənəvi şeir təntənələri klassik şairimiz Molla Pənah Vaqifin doğulduğu Qazax rayonundan start götürüb və sonrakı günlərdə Gəncədə və Ağdam rayonunda davam edib. Bayramın "zirvə" görüşləri isə iyulun 22–23-də Vaqifin məşhur şair, siyasi və ictimai xadim kimi tanındığı, Qarabağ xanı İbrahimxəlil xan Cavanşirin baş vəziri olduğu azad Şuşada gerçəkləşib. Mədəniyyət paytaxtımızdakı tədbirlərdə tanınmış ədəbiyyat və incəsənət xadimləri, dövlət və hökumət nümayəndələri iştirak ediblər.

Şeirsevərlərin ənənəvi poeziya bayramı ovqatına kökləndiyi bir vaxtda növbəti "Ədəbiyyat səhifəsi"ni oxuculara təqdim edirik.



Vahid ƏZİZ, Xalq şairi

## Gəlin, yad planetlilər...

Hardasız, yol gələnlər?
Aləm yaman qarışıb –
ya sayımız çoxalıb,
ya vaxtın ağlı çaşıb!

Salamat bir yeri yox –
Dünyamız qan içində,
heç bilməzdim olurmuş
insan – həyatı sevən,
həm də ki, qan içən də!

Alovlanıb qitələr –
Şimal da o gündədir,
Cənubu da alovlu,
Gündoğanla – Günbatan
arası kəsilməyən
savaş meydanı oldu!

Torpağı ayaqlayır
zirehlər ağır-ağır,
həm yerdə təlatümlər,
həm göydən alov yağır.

Yayılan son xəbərlər
insanı üşüdürlər;
İnsan ömründən baha
od püskürən raketlər
göydən – "beş-on manatlıq"
"PUA"lar düşürürlər!

Dil tapa bilə bilmir
xalqlar başbilənləri;
"KOVİD" – bu Yer üzünü
tarimar edən zaman
"Başbilənlər" birləşib
bir dərman yaratmadı,
amma, indi birləşib
silahlar yaradırlar,
Ulu Tanrı, görmürsən? –
Səni də aldadırlar!

Neçə-neçə güclünün
qarışıb, ağlı çaşıb,
hardasız? Ləngiməyin –
gəlin Yadplanetlilər –
deyəsən Dünyamızın
dağılan vaxtı çatıb.

Özü də elə gəlin ki,
burdan qayıdan zaman
Dünyamız xilas olsun.
Elə çıxıb gedin ki,
Yer üzü əbədilik
silah-sursatsız qalsın...

## Dava şeiri



Müharibə başlayıb... Nəbatat bağındayam.
Hava yaman soyuqdu, özüm də bir az xəstə,
Heyf, evdən çıxanda papaq da qoymamışam.
Anam elə bilir ki, ölüm ayağındayam,
Müharibə başlayıb, Nəbatat bağındayam.
Mən səni gözləyirəm....
Eləcə dayanmışam Eldar şamının altda,
Gör ey, adam adında ağaclar varmış hətta.
Ağacların üstündən yıxılan balacalar
böyüyür, igid olur,
Mən səni gözləyirəm, amma indi, bəlkə də
Bu ağacın adaşı Şuşada şəhid olur.
Mən səni gözləyirəm...
Gəlsən, soruşma məndən Vətən
səninçün nədi?
Bax, indi dediklərim hamısı bəhanədi:
Anamın olduğu yer, atamın yatdığı yer,
Bir də sən hardasansa, ora mənə Vətəndi.
Anam heç vaxt ölməsin, sən də ölmək istəmə,
Mən atamdan bilirəm – ölüm bədahətəndi.

Rəşad Nağı MUSTAFA

## Dünya

Bu dünyanın lap əzəldən,
Qışı da yazı boydadı.
Nə böyükdü, nə balaca,
Çoxu da azı boydadı!

Axır yozdum bu yuxunu,
Tanıdım yadı-yaxını,
Hamının boyu-buxunu,
Ağzının sözü boydadı!

Dünya-başa qaxanların,
Dünya-başa çıxanların,



Dünya-ona baxanların,
Koralmış gözü boydadı.

Həm "qarası", həm "ağının",
Yatmışının, oyağının,
Dünya insan ayağının,
Torpağı-tozu boydadı.

Çox axtardım künc-bucağın,
Həm o çağın, həm bu çağın,
Dünya-yanan bir ocağın,
Közərən közü boydadı.

Az ovcunda bük ürəyi,
Aç, çarmıxa çək ürəyi,
İnsanlar var tək ürəyi,
Dünyanın özü boydadı.

Xəlil ADIGÖZƏL

## Oktyabr şeiri



Kəsib tullayasan qollarını da,
Yetim saxlayasan qucaqlarını...
Biryolluq hamıdan çıxıb gedəsən,
Bir it qucaqlaya ayaqlarını...

Ay ağac, yazıqsan – qış ağacısan,
Bu bekar torpağın boş ağacısan,
Bilsəydim anamın baş ağacısan,
O vaxt sındırmazdım budaqlarını...

Qırmızı kəndirdə boynun dincələ,
Ölüm də gələndə gülərüz gələ,
Bir gün uzaqlardan bir payız gələ,
Deyə ki, qaytarın yarpaqlarımı!..

Şəhriyar del GERANİ

## Hələ



Tanrı dərgahından gəldim,
Əmrindəyəm, qulam hələ.
Bəndə qəbul etməsə də,
Tanrıma qəbulam hələ.

Ağlıma məhkum olsam da,
Hissimə qəyyum olsam da,
Çölümdə məlum olsam da,
İçimdə məchulam hələ.

Dolmalıyam, daşmalıyam,
Çox sədləri aşmalıyam.
Bərkiyib daşlaşmalıyam,
Bir duru məhlulam hələ.

Düşünərək dönə-dönə
Başlayıram yeni günə.
Ölüm, mane olma mənə,
İşim var, məşğulam hələ.

Zaur İLHAMOĞLU

## Güllə



O günü torpaqda lalə qızardı,
Utana-utana baxdı lalələr.
Bir qarış torpaqda bahar ağladı,
Arzunu, sevgini güllələdilər.

Milyonlar qalxaydı o gün ayağa,
Bir barmaq nə idi, ləngidəydilər,
Bir güllə nə idi, söndürəydilər...

Yağdı ürəyindən lalə yağışı,
Torpağın sinəsi islandı güllə.
Şair sorağında gəzir dünyanı,
Dantesin Puşkinə atdığı güllə.

Allahşükür AĞA

## Ən gözəl qadınlar qocalır...



Salam, şair, darıxıram, bu təklik
Yenə məni üzüyumşaq tanıdı.
Yenə payız, yenə soyuq, yenə mən
Yenə yerim sobaların yanıdı

Hələ sənə demədiyim bir gerçək
Hələ sənə açmadığım yalan var
Düz bir ildi yuxu yata bilmirəm
Qorxuram ki, yastığımda ilan var

Ağ tük tapdım arasından saçımın
Qoparmadım, saxlamışam, çoxalsın
Otuz ildə cavan qalıb neynədim?
Canı çıxsın, saçlarımın, qocalsın.

Gəl, bir gün oturaq qədəh-qədəhə
Görək, göz yaşından nə qalır, şair?
İçimdə ən məsum mələklər ölür,
Ən gözəl qadınlar qocalır, şair!

Günel MÖVLUD

## Güzgü



Baxdığın güzgünü saldın, qırıldı,
Təəssüf oxudum üzündə sənin.
Nə yaman dayandın halsız, pərişan? –
Belə bilməz idim dözümdə səni.

O sınıq güzgünün bir parasını
Özünlə götürdün bilmirəm nəsə.
Arada gördüm ki, xəlvətə salıb
O sınıq güzgüylə güzgülənirsən.

…Mələyə döndərdi, yenə mələyə
Gözümdə o sığal, o düzgü səni.
Yüz yerdən, min yerdən sınsa da, yenə
Bütöv göstərirdi o güzgü səni.

Sərvaz HÜSEYNOĞLU

## Bir qarışlıq adam



Günəşi görmək üçün gecə baxırsan göyə...
Hamı sənə kor deyir, necə baxırsan göyə? –
Çox qarışıq adamsan.

Biz isə ağıllıyıq, hər şeyi "düz" bilirik,
Ürəyin dünya boyda olsa da, biz bilirik –
Bir qarışlıq adamsan.

Saçında ağ tellərin qaralarla yarışır,
Belə də davam elə, sənə də bu yaraşır –
Tam yarışlıq adamsan.

Gözlərindən axanlar gözünə bir də baxmır,
Axı niyə baxanlar üzünə bir də baxmır? –
Bir baxışlıq adamsan?

Ahın yerdən göylərə, heç çatmasın, əzizim,
Səni qara buludlar aldatmasın, əzizim,
Bir yağışlıq adamsan.

Səddam LAÇIN

## "Uç, uç, meyxanəçi..."



Sərxoş gəlmişəm qapına,
Aç, aç, meyxanəçi!
Aşiqlər sənə tapınar…
Keç, keç, mexanəçi!

Olubmu öldüyün sənin?
Dərddən güldüyün sənin?
Elə hey xaç bildiyin sənin
Hac, Hac, meyxanəçi!

Aranı dağa daşımısanmı?
Solunu sağa daşımısanmı?
Özünü uzağa daşımısanmı? –
Köç, köç, mexanəçi!

Baxma naşı-naşı mənə,
Mey gətir – söz daşı mənə.
Könlün varsa qoşul mənə,
Uç, uç, mexanəçi!

Cahil əllərində aşiq başları –
Minarə kərpici, qüllə daşları…
İçib ayılır eşq sərxoşları…
İç, iç, mexanəçi!

Mən bu çağın nəyiylə yarışım?
Mən bu torpağın nəyiylə qarışım?!
Mən bu dünyanın nəyiylə barışım? –
Puç, puç, mexanəçi!

Şaiq VƏLİ



*

Bu gün səhər küçənizin tinindən keçdim,
Gedib-gələn, gəlib-gedən: Adam doluydu.
Bu yol sənli günlərimin nicat yoluydu,
Gündə yüz yol uzunundan, enindən keçdim.
Gördüm həyat davam edir öz axarında,
Günəş doğub küçənizin baş tərəfində.
Bir kişi piştaxta qoyub yol kənarında,
Lotereya biletlərin düzüb rəfində
Səsləyirdi: Gəl, qalmadı "Ailə sevinci".
Düşündüm ki, olmayan şeyin nə sevinci?!
Nə mən səni bağışladım, nə sən rəhm elə,
Yaşa getsin, ürəyimin daş tərəfində.
Bəlkə də heç o son görüş olmamalıydı...
Ömrüm ötdü "bəlkə"lərin "kaş" tərəfində.
Təsadüfən küçənizin tinindən keçdim...
Qürur sevgi, məhəbbəti boğur deyirlər.
Təəssüf ki, anlamadın hələ sən bunu.
Təsadüflər zərurətdən doğur deyirlər.
Təsadüfə inanmıram, biləsən bunu,
Təsadüfən binanızın önündən keçdim...

Elvin ƏLİZADƏ

*Səhibəni hazırladı:*
*Əli NƏCƏFXANLI*
*XQ*

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 160 (30854) 3 avqust 2025-ci il, bazar

İDMAN

# Qırmızı vərəqə ilə yazılan karyera

*O, nə qol vurdu, nə də bir oyunda iştirak etdi, amma 20 illik "futbol karyerası" var*



**Futbol tarixində saysız-hesabsız ulduzlar olub. Bəziləri texnikası, bəziləri meydandakı liderliyi ilə yadda qalıb. Amma bir şəxs var ki, onun adını nə qollarla, nə də titullarla xatırlamaq mümkündür. Çünki o, faktiki olaraq heç vaxt futbol oynamayıb. Söhbət braziliyalı Karlos Enrike Raposodan – daha çox Karlos Kayzer kimi tanınan və futbol tarixinin ən qeyri-adi fiqurlarından birindən gedir.**

1963-cü ildə Rio-de-Janeyroda anadan olan Kayzer uşaq yaşlarından futbolçularla dostluq quraraq bu mühitə daxil olmuşdu. Xarizmatik danışığı, idmançı görünüşü və çevik sosial bacarıqları ona "peşəkar futbolçu" imici qazandırmışdı. Bu imic o qədər inandırıcı idi ki, Braziliyanın "Botafoqo", "Fluminense", "Vasko da Qama", Fransanın "Ajaccio", Meksikanın "Puebla", hətta Argentinanın bəzi klubları ilə belə müqavilələr bağlaya bilmişdi. Əslində, o, meydanda demək olar ki, heç vaxt görünmürdü.

20 il ərzində bir dəfə də olsun rəsmi oyunda iştirak etməyən Kayzerin əsas "oyunu" meydanda deyil, kulislərdə gedirdi. O, daim zədəli olduğunu bildirir, məşqlərdə iştirak etmir və saxta tibbi arayışlar təqdim edirdi. Həkim tanışları vasitəsilə aldığı bu sənədlərlə klubları inandırır, "bərpa dövrü" bəhanəsi ilə illərlə meydandan uzaq qalırdı. Əsas fəaliyyət sahəsi isə jurnalistlərə "karyerası" barədə müsahibələr vermək və komanda yoldaşları ilə yaxın münasibətlər qurmaq idi.

Kayzerin "karyerasında" ən dramatik epizod "Banqu" klubunda baş verir. Klubun sahibi - tanınmış kazino sahibi və nüfuzlu şəxs Kastor de Andrade komanda oyunu uduzan zaman məşqçidən Kayzerin meydana çıxmasını tələb edir. Oyuna daxil olmaq istəməyən Kayzer çıxış yolu kimi tribunadakı azarkeşlərlə dava salmaqda görür. Onlara söyüş yağdırır və tribunaya hücum edir. Nəticədə, hələ meydana daxil olmamış qırmızı vərəqə alır. Beləcə, daha bir oyunu meydansız başa vurur.

Sonradan Kastorla görüşən zaman aktyorluq məharətini işə salan Kayzer deyir: "Mən valideynlərimi itirmişəm, amma siz mənim atamsınız. Sizin haqqınızda təhqiramiz sözlər deyiləndə tab gətirə bilmədim."

Bu emosional sözlər klub rəhbərini o qədər təsirləndirir ki, onun maaşını artırır və müqaviləsini uzadır.

Kayzer çoxları üçün, sadəcə, ulduz futbolçularla dostluq edən, pozitiv və zarafatcıl bir fiqur idi. Klub rəhbərləri onun komanda daxilindəki "pozitiv atmosfer yaratma qabiliyyətini" dəyərləndirir, sanki "motivator" kimi saxlayırdılar. Hər dəfə bir klubdan "zədəli" ayrılır, digərində "bərpa prosesinə" başlayırdı. Məşq etmədən maaş almağı bacarırdı.

Kayzer ictimai imicini qorumaq üçün əlavə üsullardan da istifadə edirdi. Məsələn, tribunada öz azarkeşlərinə pul verərək onların onun adını səsləndirməsini təşkil edir, ya da məşqlərdə gənc oyunçulara bilərəkdən kobud davranmalarını "xahiş edirdi" ki, yenidən "zədə alsın".

Bir dəfə saxta mobil telefonla guya Avropanın aparıcı klubları — "Real Madrid" və "Marsel" ilə danışıqlar apardığını nümayiş etdirmişdi. Lakin klub həkimlərindən biri onun telefonunun oyuncaq olduğunu anlayaraq bu fırıldağı üzə çıxarmışdı.

Kayzer 13 klubla müqavilə imzalayıb, bəziləri ilə iki dəfə. 29 yaşında bu "karyera" başa çatır. Sonradan fitnes-məşqçi kimi fəaliyyət göstərir. 2018-ci ildə onun həyatı əsasında çəkilən "Kayzer: Heç vaxt futbol oynamayan ən böyük futbolçu" adlı sənədli film "Tribeca" film festivalında təqdim olunaraq böyük maraq doğurur. Filmə paralel olaraq eyni adlı kitab da nəşr edilir.

Britaniyanın "The Guardian" qəzeti Kayzeri "futbol tarixinin ən böyük dələduzu" adlandırıb. Bu ifadə təkcə zarafat deyil. O, futbol sistemindəki boşluqlardan necə istifadə etməyin və sosial manipulyasiyanın nə dərəcədə güclü alət olduğunu nümayiş etdirən canlı nümunədir.

Əlbəttə, texnologiyanın inkişaf etdiyi indiki zamanda belə "karyera"nın qurulması, demək olar ki, mümkünsüzdür. Amma Kayzerin adı hələ uzun illər futbol tarixinin ən qeyri-adi simaları sırasında xatırlanır. Çünki o, meydanda yox, məharətlə qurulmuş yalanlar içində "oyun" qurmağı bacarmışdı…

*Hazırladı:*
***S.ELAY***
***XQ***

## "Formula 1": marşallara təlim



**Bakıda keçiriləcək "Formula 1" üzrə Azərbaycan Qran-prisinə hazırlıq məqsədi ilə marşallar üçün növbəti təlim keçirilib. Təlim Avropa Oyunları Parkında gerçəkləşib.**

Təlim nəzəri və praktiki olmaqla iki hissədən ibarət olub. Praktiki hissədə marşallar simulasiya şəraitində təlim keçib, trasda baş verə biləcək hadisələrə ilkin müdaxilə, təhlükəsizlik və digər mühüm prosedurlar üzrə bacarıqlarını təkmilləşdiriblər.

Qeyd edək ki, Azərbaycan Qran-prisi 19-21 sentyabr aralığında olacaq.

## Boksçumuz 2-ci yerdə




**Almaniyanın Frankfurt şəhərində gənc boksçular (U-19) arasında "Brandenburq Kuboku"nda həlledici mərhələsi başlanıb.**

Finala gedən yolda Azərbaycan millisinin idmançısı Sübhan Babayev (60 kiloqram) də rinqə çıxıb. O, litvalı Simonas Puniskis və italiyalı Mattia Turrinlə döyüşüb. Boksçumuz rəqiblərini məğlub edib. Babayev finalda Ellisbey Selimlə (ABŞ) qarşılaşıb. Görüş rəqibin qələbəsi ilə başa çatıb. Beləliklə, Babayev gümüş medala sahib olub.

## "Qarabağ" fanatlarına 1000 bilet ayırıb




**UEFA Çempionlar Liqasının III təsnifat mərhələsində Şimali Makedoniyada "Şkendiya" ilə qarşılaşacaq "Qarabağ"ın səfər oyununu izləmək istəyən azarkeşlər üçün ayrılmış bilet sayı bəlli olub.**

Belə ki, klubdan mətbuata verilən məlumata görə, avqustun 5-də "National Arena Todor Proeski" stadionunda baş tutacaq qarşılaşma üçün Ağdam klubunun fanatlarına 1000 bilet ayrılıb.

Biletlər dünən yerli vaxtla saat 17:00-dan etibarən satışa çıxarılıb. Bir biletin qiyməti 5 avrodur. Qeyd edək ki, "Şkendiya" - "Qarabağ" matçı Bakı vaxtı ilə saat 22:00-da başlayacaq.

***M.HACIXANLI***
***XQ***

# ADNSU-da "Açıq qapı günü"



**Azərbaycan Dövlət Neft və Sənaye Universitetində (ADNSU) abituriyentlər və valideynlər üçün "Açıq qapı günü" təşkil olunub.**

Tədbirin açılışında çıxış edən rektor Rüfət Əzizov tələbə adını qazanan abituriyentləri və onların valideynlərini təbrik edib. O, ADNSU-da formalaşdırılmış müasir tədris infrastrukturu, beynəlxalq əməkdaşlıq proqramları və universitetin elmi nailiyyətləri barədə məlumat verib. Rektor vurğulayıb ki, bu günə qədər ADNSU 150 mindən çox məzun yetişdirib və onlar yalnız Azərbaycanda deyil, dünyanın müxtəlif ölkələrində, sənayenin müxtəlif sahələrinin inkişafında, xüsusilə neft sənayesində mühüm rol oynayıblar.

Rüfət Əzizov, həmçinin ADNSU-da həyata keçirilən ikili diplom proqramları, beynəlxalq elmi jurnallarda dərc olunan məqalələr, universitetin beynəlxalq reytinqlərdə əldə etdiyi uğurlar və tədris prosesində tətbiq olunan innovativ metodlar haqqında da ətraflı məlumat verib.

400-dən çox abituriyentin iştirak etdiyi tədbir sual-cavab formatında davam edib. Rektor iştirakçıların dərs prosesi, tədris proqramları, yeni layihələr və universitetin gələcək planları ilə bağlı suallarını cavablandırıb.

***XQ***

# Vulkan 9 kilometr hündürlüyə kül atıb

**Rusiyanın Kamçatka yarımadasındakı Klyuçevskaya Sopka vulkanı 9 km hündürlüyə kül atıb. Bu barədə Rusiya Elmlər Akademiyasının Vahid Geofizika Xidmətinin Kamçatka filialının teleqram kanalında məlumat verilib.**



Xatırladaq ki, iyulun 30-da Kamçatkada baş vermiş 8,7 maqnutudalı güclü zəlzələ iyulun 31-də vulkanda kül tullantısına səbəb olub. Klyuçevskoy (Klyuçevskaya Sopka) təxminən 7 min il yaşı olan, hündürlüyü dəniz səviyyəsindən 4688-4750 metr çatan Avrasiyanın ən yüksək aktiv vulkanıdır. Bu, təxminən, 700 m diametri olan zirvə kraterinə malik konusvari coğrafi obyektdir. Yamaclarda 80-ə yaxın ikinci dərəcəli partlayış kraterləri və şlak konusları var. Vulkan 4,5 minə yaxın insanın yaşadığı Ust-Kamçatski rayonunun Klyuçi qəsəbəsindən 30 km aralıda yerləşir.

***XQ***

Hava

# Qızmar havalar davam edir

**Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin günəşli keçəcəyi gözlənilir. Şimal-qərb küləyi əsəcək, səhər cənub-şərq küləyi ilə əvəzlənəcək.**

Havanın temperaturu gecə 23-27, gündüz 35-39, bəzi yerlərdə 40 dərəcəyə yaxın isti olacaq. Atmosfer təzyiqi normadan aşağı - 756 millimetr civə sütunu, nisbi rütubət isə gecə 70-75, gündüz 35-40 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında havanın əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin gündüz bəzi dağlıq ərazilərdə qısamüddətli az yağış yağacağı, şimşək çaxacağı, dolu düşəcəyi, gecə və səhər duman olacağı ehtimalı var. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 23-28, gündüz 36-39, bəzi yerlərdə 41 dərəcəyədək isti, dağlarda gecə 15-20, gündüz 28-33 dərəcə isti olacağı ehtimal edilir.



***XQ***

## ALLAH RƏHMƏT ELƏSİN

Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının şöbə müdiri Süleyman İsmayılov və şöbənin əməkdaşları iş yoldaşları

**SƏBİNƏ FƏRƏCOVANIN**

vaxtsız vəfatından kədərləndiklərini bildirir, ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
Email: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3390
SİFARİŞ 1515
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Əli NƏCƏFXANLI
Çapa imzalanmışdır 00:00